**“Kəpəz Bank Olmayan Kredit Təşkilatı” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**2025-ci il üzrə illik**

# İdarəetmə Hesabatı

**Bakı şəhəri** **27 aprel 2026-cı il**

| Tələb olunan məlumat | Təqdim Edilən Məlumat |
|---|---|
| 1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | “Kəpəz Bank Olmayan Kredit Təşkilatı” Məhdud Məsuliyyətli Cəmiyyəti<br>“Kəpəz BOKT” MMC<br>Dövlət qeydiyyat tarixi 16 iyul 2013<br>Dövlət qeydiyyat nömrəsi 1402564861 |
| 2. Emitentin hüquqi ünvanı və olduğu yer | AZ1065, Bakı şəhəri, Yasamal rayonu, M.F.Axundov küçəsi 177<br>İnfo@kepez-bokt.az<br>Azərbaycan, Bakı |
| 3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları | Yoxdur |
| 4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar | Yoxdur |
| 5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti | Yoxdur |
| 6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatıolan qrupdur) adı | Yoxdur |
| 7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri | Azərbaycan Respublikasnın Bank olmayan kredit təşkilatları haqqında qanunun 15-ci maddəsinə əsasən |

| Tələb olunan məlumat | Təqdim Edilən Məlumat |
|---|---|
| 8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri | Azərbaycan Respublikasnın Bank olmayan kredit təşkilatları haqqında qanunun 15-ci maddəsinə əsasən |
| 9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər | Mərkəzi Bankdan aldığı lisenziya əsasında təminatlı və təminatsız kreditlərin verilməsi;<br>borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);<br>lizinq;<br>veksellərin uçotu;<br>qarantiyanın verilməsi;<br>sığorta agenti və (və ya) ödəniş agenti xidmətlərinin göstərilməsi;<br>borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi. |
| 10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası | 2025-ci il 1-ci rübün sonu – 23 (iyirmi üç) nəfər<br>2025-ci il 2-ci rübün sonu – 28 (iyirmi səkkiz) nəfər<br>2025-ci il 3-cü rübün sonu – 29 (iyirmi doqquz) nəfər<br>2025-ci il 4-cü rübün sonu – 31 (otuz bir) nəfər |
| 11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı | **Müşahidə Şurası:**<br>Əliyev Əbülfəz Əlihəsən oğlu – Müşhidə şurasının sədri<br>Əliyev Kazım Sultan oğlu – Müşahidə şurasının üzvi<br><br>**İcra Orqanı**<br>Əliyev Rəşad Əbülfəz oğlu – Direktor |

| Tələb olunan məlumat | Təqdim Edilən Məlumat |
|---|---|
| | **Audit Komitəsi**<br>Əliyev Azad Əbülfəz oğlu – Üzv |
| 12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı | Təsisçi (Payçı) bir nəfər fiziki şəxs Əliyev Əbülfəz Əlihəsən oğlu |
| 13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı | Təsisçi (Payçı) fiziki şəxs Əliyev Əbülfəz Əlihəsən oğlu – 100 (bir yüz) faiz, 5 000 000 (beş milyon) manat, 50 000 (əlli min) pay |
| 14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı) | Yoxdur |
| 15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat | |
| 15.1. Yığıncağın keçirilmə tarixi və yeri (ünvan) | 18 fevral 2025-ci il, Bakı şəhəri<br>11 aprel 2025-ci il, Bakı şəhəri<br>15 sentyabr 2025-ci il, Bakı şəhəri<br>28 oktyabr 2025-ci il, Bakı şəhəri |
| 15.2. Ümumi yığıncaqda qəbul edilmiş qərarlar | - Risklərin idarə olunması sahəsində siyasət və daxili qaydaların hazırlanıb təsdiq edilməsi<br>- 29.03.2024-cü il tarixli işə qəbul və işçilərin yoxlanılması qaydalarının yeni redaksiyası<br>- Rezident bankdan vəsaitin cəlb edilməsi<br>- İstiqraz emissiya edilməsi ilə əlaqədar |

| Tələb olunan məlumat | Təqdim Edilən Məlumat |
|---|---|
| 16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir) | |
| 16.1. İnvestisiya qiymətli kağızın növü və forması | faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar |
| 16.2. Investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi | AZ2008020805<br>AZ2009020804<br>AZ2010020801<br>AZ2012020809 |
| 16.3. İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri | - 1 000 (bir min) ədəd, 1 000 000 (bir milyon) manat<br>- 1 000 (bir min) ədəd, 1 000 000 (bir milyon) manat<br>- 1 000 (bir min) ədəd, 500 000 (beş yüz min) manat<br>- 100 (bir yüz) ədəd, 10 000 (on min) manat |
| 16.4. Investisiya qiymətli kağızlar buraxılışınıın məcmu nominal dəyəri | - 1 000 (bir min) ədəd, 1 000 000 (bir milyon) manat<br>- 1 000 (bir min) ədəd, 1 000 000 (bir milyon) manat<br>- 1 000 (bir min) ədəd, 500 000 (beş yüz min) manat<br>- 100 (bir yüz) ədəd, 1 000 000 (bir milyon) manat |
| 16.5. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği | Divident ödənişi olmayıb |
| 16.6. Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi | İllik 16 (on altı) faiz<br>İllik 14 (on dörd) faiz<br>İllik 14 (on dörd) faiz<br>İllik 15 (on beş) faiz |

| Tələb olunan məlumat | Təqdim Edilən Məlumat |
|---|---|
| 16.7. investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda) | Bakı Fond Birjası |
| 17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: | |
| 17.1. əqdin məbləği: | 1. "Kapital Bank" ASC-dən 22.05.2024-cü il tarixində illik 13 faiz dərəcəsi ilə alınmış 600 000 manat məbləğində kredit.<br>2. ""Paşa Bank" ASC-dən 06.12.2024-cü il tarixində illik 14 faiz dərəcəsi ilə alınmış 400 000 manat məbləğində kredit.<br>3. "Kapital Bank" ASC-dən 23.12.2024-cü il tarixində illik 14.5 faiz dərəcəsi ilə alınmış 260 000 manat məbləğində kredit<br>4. "Access Bank" QSC-dən 15.07.2025-ci il tarixidə illik 15 faiz dərəcəsi ilə alınmış 125 000 manat məbləğində kredit<br>5. "Access Bank" QSC-dən 26.05.2025-ci il tarixində illik 15 faiz dərəcəsi ilə alınmış 425 000 manat məbləğində kredit.<br>6. "Kapital Bank" ASC-dən 18.06.2025-ci il tarixidə illik 14.5 faiz dərəcəsi ilə alınmış 400 000 manat məbləğində kredit.<br>7. "Kapital Bank" ASC-dən 15.09.2025-ci il tarixində illik 14.5 faiz dərəcəsi ilə alınmış 200 000 manat məbləğində kredit. |
| 17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi: | 1. "Kapital Bank" ASC-dən 22.05.2024-cü il tarixli kredit üzrə qalıq 242 960 manat təşkil edir<br>2. ""Paşa Bank" ASC-dən 06.12.2024-cü il tarixli kredit üzrə qalıq 284 978 manat təşkil edir.<br>3. "Kapital Bank" ASC-dən 23.12.2024-cü il tarixli kredit üzrə qalıq 185 527 manat təşkil edir<br>4. "Access Bank" QSC-dən 15.07.2025-ci il tarixli kredit üzrə qalıq 110 875 manat təşkil edir |

| Tələb olunan məlumat | Təqdim Edilən Məlumat |
|---|---|
| | 5. "Access Bank" QSC-dən 26.05.2025-ci il tarixli kredit üzrə qalıq 367 662 manat təşkil edir<br>6. "Kapital Bank" ASC-dən 18.06.2025-ci il tarixli kredit üzrə qalıq 345 858 manat təşkil edir<br>7. "Kapital Bank" ASC-dən 15.09.2025-ci il tarixli kredit üzrə qalıq 152 956 manat təşkil edir |
| 18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar: | |
| 18.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği: | Yoxdur |
| 18.2. aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi: | Yoxdur |
| 19.İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi | |
| 20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat | https://kepez-bokt.az/ |

**"Kəpəz Bank Olmayan Kredit Təşkilatı"**
**Məhdud Məsuliyyətli Cəmiyyətinin Direktoru Əliyev R.Ə.**

AZƏRBAYCAN RESPUBLİKASI
KƏPƏZ
BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC

**“Kəpəz” BOKT MMC**

**31 dekabr 2025-ci il tarixində bitən il üzrə**

**Maliyyə Hesabatları və**
**Müstəqil Auditorun Hesabatı**

## MÜNDƏRİCAT

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

MÜSTƏQİL AUDİTORUN HESABATI

MALİYYƏ HESABATLARI

Maliyyə vəziyyəti haqqında hesabat ........ 1
Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat ........ 2
Kapitalda dəyişikliklər haqqında hesabat ........ 3
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........ 4

Maliyyə hesabatları üzrə qeydlər

1 Cəmiyyət və onun əsas fəaliyyəti ........ 5
2 Cəmiyyətin əməliyyat mühiti ........ 5
3 Əhəmiyyətli uçot prinsiplərinin icmalı ........ 6
4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr ........ 16
5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi ........ 18
6 Əlaqəli tərəflərlə əməliyyatlar ........ 21
7 Pul vəsaitləri və onların ekvivalentləri ........ 21
8 Satış üçün saxlanılan aktivlər ........ 22
9 Müştərilərə verilmiş kreditlər və avanslar ........ 22
10 Əmlak və avadanlıqlar və qeyri-maddi aktivlər ........ 25
11 Digər aktivlər ........ 26
12 Mənfəət vergisi ........ 26
13 Müddətli borc öhdəlikləri ........ 27
14 Səhmdarlara olan borc öhdəliyi ........ 29
15 Buraxılmış borc qiymətli kağızları ........ 29
16 Digər öhdəliklər ........ 30
17 Nizamnamə kapitalı ........ 30
18 Xalis faiz gəliri ........ 31
19 Digər gəlirlər ........ 31
20 İnzibati və digər əməliyyat xərcləri ........ 31
21 Maliyyə risklərinin idarə edilməsi ........ 32
22 Kapitalın idarəedilməsi ........ 37
23 Şərti öhdəliklər ........ 38
24 Maliyyə alətlərinin ədalətli dəyəri ........ 38
25 Hesabat tarixindən sonrakı hadisələr ........ 41

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

Aşağıdakı bəyanat, müstəqil auditorların hesabatında göstərilmiş auditorların rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "Kəpəz BOKT" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişikliklərini MHBS Mühasibat Uçotu Standartlarına müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılara cavabdehdir:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğunluğunun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS Mühasibat Uçotu Standartlarının tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının davamlılıq prinsipi əsasında hazırlaması.

Rəhbərlik, həmçinin aşağıdakılara görə məsuldur:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin qorunmasının təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2025-ci il tarixində bitən il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən 24 aprel 2026-cı il tarixində təsdiq edilmişdir.

Rəhbərlik adından:

Rəşad Əliyev
Direktor

Elvin Rəhimov
Maliyyə məsələləri üzrə direktor müavini

RSM Azerbaijan
Demirchi Tower 5 th floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan
T +994(12) 480 4571
F +994(12) 480 4563
www.rsm.az

## MÜSTƏQİL AUDİTORUN HESABATI

"Kəpəz" BOKT MMC-nin Səhmdarlarına və Rəhbərliyinə:

**Rəy**

Biz "Kəpəz" BOKT Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatın və həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabatın, kapitalda dəyişikliklər haqqında hesabatın və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın, eləcə də əhəmiyyətli uçot prinsiplərinin icmalı və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizə, əsasən əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə olan maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət, rəyimizin "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Cəmiyyətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövr üzrə maliyyə hesabatlarının auditi zamanı ən əhəmiyyətli saydığımız məsələlərdir. Bu məsələlərə bütövlükdə maliyyə hesabatlarının auditi konteksində və bununla bağlı rəyimizin formalaşdırılması çərçivəsində baxılmışdır. Biz bu məsələlərlə bağlı ayrıca rəy bildirmirik.

*Əsas audit məsələsi*

*Müştərilərə verilmiş ehtimal olunan kreditlər üzrə zərər ehtiyatı*

Müştərilərə verilmiş kreditlər aktivlərin 83 %-ni təşkil edir və gözlənilən kredit zərərləri ("GKZ") üzrə ehtiyyat çıxılmaqla təqdim olunmuşdur. Ehtiyyat məbləği istifadə olunmuş fərziyyələr əsasında formalaşır və mütəmadi olaraq qiymətləndirilir.



RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi rəhbərlikdən defolt ehtimalını, defolt zamanı gözlənilən riski və zərəri müəyyən etmək üçün tarixi məlumatı, mövcud iqtisadi vəziyyəti və əldə olan proqnoz məlumatı nəzərə almaqla, əhəmiyyətli mühakimələr yürütməyi və qiymətləndirmə üsulları tətbiq etməyi tələb edir. Maliyyə aktivləri üzrə gözlənilən kredit zərərlərinin fərdi qaydada hesablanması borcalanların cari və perspektivdə maliyyə nəticələrini və girovun dəyərini nəzərə alaraq gözlənilən gələcək pul axınlarının ssenari əsasında təhlilini tələb edir.

Müştərilərə verilmiş kreditlərlə bağlı ehtimal olunan zərərlər üzrə ehtiyat Cəmiyyətin maliyyə vəziyyəti ilə bağlı qalıqların əhəmiyyətliliyi baxımından, eləcə də 9 saylı MHBS "Maliyyə alətləri" standartına əsasən gözlənilən kredit zərərlərinin hesablanmasının mürəkkəbliyinə və subyektivliyinə görə əsas audit məsələsidir.

*Audit zamanı məsələyə yanaşmamız*

Biz Cəmiyyətin gözlənilən kredit zərərlərinin hesablanması ilə əlaqədar tətbiq etdiyi metodologiya və siyasətlərinin əsas aspektlərini 9 saylı MHBS "Maliyyə alətləri" standartının tələblərinə uyğunluğu baxımından təhlil etmək üçün maliyyə risklərinin idarə edilməsi üzrə öz mütəxəssislərimizi işə cəlb etdik.

Ehtimal olunan kredit zərərləri üzrə ehtiyatın hesablanması zamanı rəhbərliyin irəli sürdüyü peşəkar mühakimə və fərziyyələrin münasibliyini təhlil etmək üçün biz aşağıdakı prosedurları həyata keçirdik:

Biz müştərilərə verilmiş kredit nümunələri üzrə defolt ehtimalı, defolt zamanı zərər (LGD) və defolt zamanı riskə məruz qalan məbləğin (EAD) hesablanmasında istifadə olunan verilənlərin dəqiqliyini yoxladıq.

Müştərilərə verilmiş 3-cü mərhələ kredit nümunələri üzrə gözlənilən kredit zərərlərinin fərdi qaydada hesablandığı hallarda Cəmiyyətin gələcək pul vəsaitlərini proqnozlaşdırması, o cümlədən realizasiya edilə bilən girovun satışı üzrə gözlənilən daxilolmalar və gözlənilən realizasiya şərtləri üçün irəli sürdüyü fərziyyələri öz biliklərimizə və açıq məlumata əsasən qiymətləndirdik.

Biz həmçinin maliyyə hesabatlarındakı açıqlamaların Cəmiyyətin kredit riskinə məruz qalan məbləğlərini düzgün şəkildə əks etdirib-etdirmədiyini yoxlamışıq.

## Maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyətləri verilmiş şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyətin ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

RSM

**Maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında Rəhbərliyə və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərə məlumat veririk.

24 aprel 2026-cı il

RSM Azerbaijan

Bakı, Azərbaycan Respublikası

## "KƏPƏZ" BOKT MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ
*(Xüsusi hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 1,015,697 | 325,047 |
| Satış üçün saxlanılan aktivlər | 8 | 880,132 | 648,479 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 9 | 12,238,162 | 10,665,355 |
| Əmlak və avadanlıqlar | 10 | 332,376 | 350,346 |
| Qeyri-maddi aktivlər | 10 | 24,687 | 21,331 |
| Digər aktivlər | 11 | 296,343 | 95,651 |
| **CƏMİ AKTİVLƏR** | | **14,787,397** | **12,106,209** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 18 | 5,000,000 | 2,000,000 |
| Bölüşdürülməmiş mənfəət | | 2,435,695 | 3,313,933 |
| **CƏMİ KAPİTAL** | | **7,435,695** | **5,313,933** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Müddətli borc öhdəlikləri | 14 | 1,702,479 | 1,664,240 |
| Səhmdarlara olan borc öhdəliyi | 15 | 668,000 | 641,962 |
| Mənfəət vergisi öhdəliyi | | 125,411 | 228,789 |
| Təxirə salınmış vergi öhdəliyi | 12 | 147,344 | 75,567 |
| Buraxılmış borc qiymətli kağızları | 16 | 4,496,140 | 4,112,751 |
| Digər öhdəliklər | 17 | 212,328 | 68,967 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **7,351,702** | **6,792,276** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **14,787,397** | **12,106,209** |

24 aprel 2026-cı il tarixində Rəhbərliyin adından imzalanmış və dərc olunmaq üçün təsdiqlənmişdir.

Rəşad Əliyev
Direktor

Elvin Rəhimov
Maliyyə məsələləri üzrə direktor müavini

AZƏRBAYCAN RESPUBLİKASI
KƏPƏZ
BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Xüsusi hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 19 | 5,057,937 | 4,402,025 |
| Faiz xərcləri | 19 | (919,335) | (873,721) |
| **Xalis faiz gəlirləri** | | **4,138,602** | **3,528,304** |
| Gözlənilən kredit zərəri üzrə ehtiyat | | (418,420) | (223,351) |
| Digər gəlirlər | 20 | 578,694 | 432,481 |
| **Əməliyyat mənfəəti** | | **4,298,876** | **3,737,434** |
| İnzibati və digər əməliyyat xərcləri | 21 | (1,646,545) | (1,398,030) |
| **Vergidən əvvəlki mənfəət** | | **2,652,331** | **2,339,404** |
| Mənfəət vergisi | 12 | (530,569) | (481,990) |
| **Cəmi məcmu gəlir** | | **2,121,762** | **1,857,414** |

24 aprel 2026-cı il tarixində Rəhbərliyin adından imzalanmış və dərc olunmaq üçün təsdiqlənmişdir.

Rəşad Əliyev
Direktor

Elvin Rəhimov
Maliyyə məsələləri üzrə direktor müavini

AZƏRBAYCAN RESPUBLİKASI * BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC * KƏPƏZ

## "KƏPƏZ" BOKT MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Xüsusi hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **01 yanvar 2024-cü il** | **2,000,000** | **1,456,510** | **3,456,510** |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,857,414 | **1,857,414** |
| **31 dekabr 2024-cü il** | **2,000,000** | **3,313,933** | **5,313,933** |
| Nizamnamə kapitalında artım | 3,000,000 | (3,000,000) | - |
| İl üzrə cəmi məcmu gəlir | - | 2,121,762 | **2,121,762** |
| **31 dekabr 2025-ci il** | **5,000,000** | **2,435,695** | **7,435,695** |

24 aprel 2026-cı il tarixində Rəhbərliyin adından imzalanmış və dərc olunmaq üçün təsdiqlənmişdir.

Rəşad Əliyev
Direktor

Elvin Rəhimov
Maliyyə məsələləri üzrə direktor müavini

AZƏRBAYCAN RESPUBLİKASI BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC KƏPƏZ

**"KƏPƏZ" BOKT MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Xüsusi hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Vergidən əvvəlki mənfəət | | 2,652,331 | 2,339,404 |
| Qeyri-nağd düzəlişlər: | | | |
| Köhnəlmə və amortizasiya xərcləri | 11 | 96,527 | 22,927 |
| Faiz gəlirləri | 19 | (5,057,932) | (4,402,025) |
| Faiz xərci | 19 | 919,335 | 873,721 |
| Gözlənilən kredit zərəri üzrə ehtiyat xərci | | 418,420 | 223,351 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərindən əvvəl əməliyyat fəaliyyəti üzrə istifadə edilən pul vəsaitləri** | | **(971,319)** | **(942,622)** |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər** | | | |
| Satış üçün saxlanılan aktivlərdə dəyişiklik | 9 | (231,653) | (216,660) |
| Müştərilərə verilmiş kredit və avanslarda dəyişiklik | 10 | (1,690,411) | (1,428,101) |
| Digər aktivlərdə dəyişiklik | 13 | (200,696) | 11,449 |
| Digər öhdəliklərdə dəyişiklik | 17 | 143,361 | 9,583 |
| **Vergidən və faizlərdən əvvəl əməliyyat fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(2,950,718)** | **(2,566,351)** |
| Ödənilmiş vergi | | (562,170) | (413,425) |
| Müştərilərə verilmiş kreditlər və avanslar üzrə alınmış faiz | | 4,757,122 | 3,939,904 |
| Ödənilmiş faizlər | 14,16 | (937,923) | (852,768) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan pul vəsaitləri** | | **306,311** | **107,360** |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | 11 | (81,913) | (286,697) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(81,913)** | **(286,697)** |
| **Maliyyələşdirmə fəaliyyəti** | | | |
| Müddətli borc öhdəlikləri üzrə daxilolmalar | 14 | 1,150,000 | 1,260,000 |
| Müddətli borc öhdəliklərinin ödənilməsi | 14 | (1,114,244) | (939,241) |
| Səhmdarlardan alınmış borc üzrə daxilolmalar | 15 | 415,000 | 1,504,900 |
| Səhmdarlardan alınmış borcun ödənilməsi | 15 | (384,500) | (967,400) |
| Buraxılmış borc qiymətli kağızlarından daxilolmalar | 16 | 1,000,000 | 695,000 |
| Buraxılmış borc qiymətli kağızlarının ödənilməsi | 16 | (600,000) | (1,177,000) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **466,256** | **376,259** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım** | | **690,650** | **196,922** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | | **325,047** | **128,125** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | | **1,015,697** | **325,047** |

24 aprel 2026-cı il tarixində Rəhbərliyin adından imzalanmış və dərc olunmaq üçün təsdiqlənmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI * BANK OLMAYAN KREDİT TƏŞKİLATI MMC * KƏPƏZ

Rəşad Əliyev
Direktor

Elvin Rəhimov
Maliyyə məsələləri üzrə direktor müavini

4-41-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.

## 1. Giriş

### Cəmiyyət və onun əsas fəaliyyəti

"Kəpəz" BOKT MMC ("Cəmiyyət") 2014-cü ildə təsisçilər tərəfindən ənənəvi bankçılıq sistemi vasitəsi ilə kredit əldə etmək imkanı olmayan fərdi sahibkarlara davamlı kredit xidməti göstərmək məqsədi ilə təsis edilmişdir. Cəmiyyət fiziki şəxslərə kredit verməklə onların fəaliyyətlərinin böyüməsi və iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması yolu ilə Azərbaycan iqtisadiyyatının inkişafına köməklik göstərir.

Cəmiyyət 16 iyul 2013-cü il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən "Kəpəz" BOKT MMC adı ilə qeydiyyatdan keçirilmişdir. Cəmiyyət 01 oktyabr 2014-cü il tarixindən Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") tərəfindən verilmiş 19 mart 2014-cü il tarixli BKT-22 nömrəli lisenziyası əsasında fəaliyyət göstərir.

Cəmiyyətin hüquqi ünvanı aşağıdakı kimidir:

AZ1065, Bakı şəhəri, Yasamal rayonu, M.F.Axundov küçəsi 177.

31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin işçilərinin sayı 31 nəfər (31 dekabr 2024-cü il: 23 nəfər) olmuşdur.

Cəmiyyət bütünlüklə təsisçilərə məxsusdur. Cəmiyyətin əsas təsisçi payları aşağıdakı kimidir:

| | 31 dekabr 2025-ci il, % | 31 dekabr 2024-cü il, % |
|---|---|---|
| Əliyev Əbülfəz Əlihəsən oğlu | 100 | 100 |
| **Cəmi** | **100** | **100** |

Əlaqəli tərəflərlə olan əməliyyatlar qeyd 6-də açıqlanır.

## 2. Cəmiyyətin əməliyyat mühiti

Cəmiyyət fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir və nəticədə Azərbaycanın iqtisadi və maliyyə bazarlarının inkişaf etməkdə olan bazar xüsusiyyətlərinə məruz qalır.

Azərbaycanın iqtisadiyyatı, bir çox inkişaf etməkdə olan bazarlar kimi, qlobal iqtisadi şərtlər, hökumət siyasəti və enerji qiymətlərindəki dalğalanmalardan təsirlənməyə davam edir. Ölkə iqtisadiyyatın şaxələndirilməsinə diqqət yetirsə də, əsas sahələrdə sabitliyin qorunması uzunmüddətli inkişaf üçün vacibdir. Azərbaycanın iqtisadiyyatının gələcək inkişaf istiqaməti əsasən fiskal və monetar siyasətlərin effektivliyindən, həmçinin xam neft qiymətlərindən və milli valyutanın sabitliyindən asılıdır.

Hüquqi, vergi və tənzimləyici baza inkişafa davam edir, lakin müxtəlif şərhlərə və tez-tez dəyişikliklərə məruz qalır ki, bu da digər hüquqi və fiskal maneələrlə birlikdə Azərbaycanda fəaliyyət göstərən qurumların üzləşdiyi çətinliklərə kömək edir. Neftin qiymətindəki dəyişkənlik və Rusiya Federasiyası ilə Ukrayna arasında davam edən hərbi münaqişə biznes mühitində qeyri-müəyyənliyi daha da artırıb.

Azərbaycan iqtisadiyyatı xüsusilə neft və qaz qiymətlərinə həssasdır. Son illər Azərbaycan hökuməti daha balanslaşdırılmış iqtisadiyyata keçidi sürətləndirmək və neft-qaz sektorundan asılılığı azaltmaq üçün böyük iqtisadi və sosial islahatları davam etdirmişdir.

2025-ci il ərzində Azərbaycan iqtisadiyyatı hökumətin apardığı iqtisadi islahatlar, sabit məzənnə rejimi və adekvat valyuta ehtiyatları ilə dəstəklənən ümumi makroiqtisadi sabitlik nümayiş etdirməkdə davam edib.

## 2. Cəmiyyətin əməliyyat mühiti (davamı)

2025-ci ildə Azərbaycanda 129,1 milyard manatlıq (75.9 milyard ABŞ dolları) və yaxud 2024-cü illə müqayisədə 1,4 % çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Son 1 ildə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,6 % azalıb, qeyri neft-qaz sektorunda isə 2,7 % artıb.

2025-ci ildə Azərbaycan xarici ölkələrlə 49 milyard 423 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Ölkə üzrə xarici ticarətdə 663 milyon dollarlıq müsbət saldo yaranıb. Bu da illik müqayisədə 8,3 dəfə azdır.

Bu ilin yanvar-noyabr aylarında Azərbaycanın strateji valyuta ehtiyatları 12,5 milyard ABŞ dolları və yaxud 17,6 % artaraq 83,5 milyard ABŞ dollarına çatıb.

2025-ci ilin dekabr ayında inflyasiya Mərkəzi Bankın 4±2% hədəf diapazonuna uyğun olaraq 12 aylıq inflyasiya 5.2% təşkil edib. Qiymətlər illik əsasda qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6.4%, ödənişli xidmətlər üzrə 5.7%, qeyri-qida məhsulları üzrə isə 2.5% artıb. İllik baza inflyasiyası 2025-ci ilin dekabr ayında 4.8% təşkil edib ki, bu da inflyasiyanın qalıcı hissəsinin hədəfə yaxın olduğunu göstərir. Qiymət sabitliyini dəstəkləmək və inflyasiyanın inkişafına və makroiqtisadi şəraitə cavab vermək üçün Mərkəzi Bank yenidən maliyyələşdirmə dərəcəsi 2025-ci ilin iyul ayında 7%-ə endirildi.

Beynəlxalq kredit reytinq agentlikləri Azərbaycanın iqtisadi perspektivlərini qiymətləndirməyə davam ediblər. Böyük suveren fond aktivləri, davamlı xalis ümumi dövlət aktivləri mövqeyi və karbohidrogen qiymətlərinin dəyişkənliyinə qarşı əhəmiyyətli qorunma təmin edən aşağı dövlət borcu sayəsində Azərbaycanın fiskal və xarici buferləri müstəsna dərəcədə güclü olaraq qalır. 05 dekabr 2025-ci il tarixində S&P Global Ratings Azərbaycan üzrə proqnozunu sabitdən müsbətə dəyişdi. Eyni zamanda, S&P Global Ratings Azərbaycanın uzun və qısamüddətli xarici və yerli valyutada suveren kredit reytinqlərini "BB+/B" səviyyəsində təsdiqləyib. Beynəlxalq reytinq agentliyi Moody's Azərbaycanın suveren kredit reytinqini "Baa3" səviyyəsində təsdiqləyib. Reytinq proqnozu Moody's tərəfindən "müsbət" olaraq təsdiqlənib. Agentlik qeyd edir ki, Azərbaycanın kredit reytinqi əhəmiyyətli maliyyə buferləri ilə dəstəklənir və bu, xarici şoklara qarşı həssaslıq risklərini azaldır.

İqtisadi islahatlar neftdən asılılığın azaldılması və özəl sektorun stimullaşdırılması ilə yanaşı, iqtisadiyyatın şaxələndirilməsini yaxşılaşdırmaqda davam edir. Hökumət gələcək biznes mühitinə təsir edən vergi islahatları ilə yanaşı, sağlam rəqabəti gücləndirmək üçün tədbirləri istiqamətləndirir. Burada neft-qaz sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin inkişafı, alternativ enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, aqrar sektorun inkişafı, xarici ticarət və investisiya strukturunun təkmilləşdirilməsi kimi bir neçə istiqamət diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının gələcək iqtisadi artımı daha çox vergi, hüquqi, tənzimləyici və siyasi hadisələrlə yanaşı, Hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən asılıdır. Cəmiyyət rəhbərliyi mövcud şəraitdə iqtisadi inkişafı izləyir və yaxın gələcəkdə Cəmiyyətin davamlılığını dəstəkləmək və biznesini inkişaf etdirmək üçün zəruri hesab etdiyi qabaqlayıcı tədbirlər görür.

## 3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı

### Hesabatların tərtib edilməsinin əsas prinsipləri

### Uyğunluq prinsipi

Hazırkı maliyyə hesabatları müəyyən maliyyə alətlərinin ədalətli dəyəri ilə ölçülməsi istisna olmaqla, MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq tarixi dəyər konvensiyası əsasında hazırlanmışdır. Cəmiyyət maliyyə hesabatlarında hesabat tarixi 31 dekabr tarixidir.

## 3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)

**Hesabatların tərtib edilməsinin əsas prinsipləri (davamı)**

**Uyğunluq prinsipi (davamı)**

Qeyd olunan maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əhəmiyyətli mühasibat prinsipləri aşağıda göstərilir.

Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin maliyyə hesabatlarının hazırlanması üçün ehtimal və təxminlərin əhəmiyyətli olduğu sahələr 4 saylı Qeyddə açıqlanır.

**Funksional və hesabat valyutası**

Cəmiyyətin funksional valyutası və bu maliyyə hesabatlarının tərtib olunduğu valyuta Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

**Fasiləsiz fəaliyyət prinsipi**

Rəhbərlik hazırkı maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən hazırlamışdır. Belə bir mülahizə irəli sürərkən rəhbərlik Cəmiyyətin maliyyə vəziyyətini, mövcud planları, əməliyyatların gəlirliliyini və maliyyə resurslarından istifadəni nəzərə almış və son maliyyə böhranının Cəmiyyətin gələcək əməliyyatlarına təsirini təhlil etmişdir.Rəhbərliyin ölçü və hesabatlarına əsasən Cəmiyyət növbəti 12 ay ərzində likvidlik ehtiyaclarını tənzimləyə biləcək və buna əsasən hazırkı maliyyə hesabatları fasiləsizlik prinsipi əsasında hazırlanmışdır.

**Maliyyə aktivləri və öhdəlikləri**

**Təsnifat**

İlkin tanınma zamanı maliyyə aktivi ya amortizasiya edilmiş dəyərdə ("AD"), ya mənfəət və ya zərərdə ədalətli dəyərdə ("MZVƏD") və ya digər məcmu gəlirlərdə ədalətli dəyərdə tanınan maliyyə aktivləri ("DMGVƏD") kimi təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərə cavab verdikdə və mənfəət və ya zərərdə ədalətli dəyər kateqoriyasına aid olmadıqda amortizasiya edilmiş dəyərdə qiymətləndirilir:

- Müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:

- Həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- Müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

**3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)**

**Maliyyə aktivləri və öhdəlikləri (davamı)**

**Təsnifat (davamı)**

Amortizasiya edilmiş dəyərdə ölçülən maliyyə aktivləri kimi mənfəət və ya zərərdə tanınan aşağıdakılar istisna olmaqla, digər məcmu gəlirdə ədalətli dəyərdə ölçülən borc maliyyə aktivləri üzrə mənfəət və zərərlər digər məcmu gəlirdə tanınır:

- effektiv faiz üsulundan istifadə etməklə faiz gəliri;
- ehtimal olunan kredit zərərləri ("EOKZ") və əvəzləşdirmələr; və
- xarici valyuta mübadiləsi üzrə gəlirlər və zərərlər.

**Biznes modelinin qiymətləndirilməsi**

Cəmiyyət maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirəcək, çünki, bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, o cümlədən rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəriciləri necə qiymətləndirilir və Cəmiyyətin rəhbərliyinə necə çatdırılır;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerləri necə mükafatlandırılır – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Cəmiyyəti məqsədinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi**

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məsələn, likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Cəmiyyət alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edəcək.

**3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)**

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi (davamı)**

Qiymətləndirmə zamanı Cəmiyyət aşağıdakıları nəzərə alacaq:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Cəmiyyətin iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər məs. reqressiz aktivlər; və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məsələn faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

**Yenidən təsnifat**

Maliyyə aktivləri, Cəmiyyətin maliyyə aktivlərini idarə etməsi üzrə biznes modelini dəyişməsindən sonrakı dövr istisna olmaqla, ilkin tanınmadan sonra yenidən təsnif edilmir.

Cəmiyyət maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes modelini dəyişdikdə həmin maliyyə aktivlərini yenidən təsnif etməlidir. Belə dəyişikliklərin tez-tez baş verməyəcəyi gözlənilir. Belə dəyişikliklər xarici və daxili dəyişikliklər nəticəsində Cəmiyyətin üst rəhbərliyi tərəfindən müəyyən edilir və bu Cəmiyyətin əməliyyatları üçün əhəmiyyətli olmalı və xarici tərəflərə nümayiş etdirilməsi mümkün olmalıdır. Müvafiq olaraq, Cəmiyyətin biznes modelində dəyişiklik yalnız Cəmiyyət öz əməliyyatları üçün əhəmiyyətli fəaliyyəti dayandırdıqda və ya başladıqda, məsələn, Cəmiyyət biznes aldıqda, satdıqda və ya ləğv etdikdə baş verəcək.

**Maliyyə aktivləri**

Maliyyə aktivinin şərtləri dəyişərsə, Cəmiyyət dəyişmiş aktiv üzrə pul vəsaitlərinin əhəmiyyətli dərəcədə dəyişibdəyişmədiyini qiymətləndirir. Pul vəsaitlərində əhəmiyyətli fərqlər olduğu təqdirdə ("əhəmiyyətli modifikasiya") ilkin maliyyə aktivi üzrə pul vəsaitlərinə dair müqavilə üzrə hüquqların vaxtı keçmiş sayılır.

Belə olan halda ilkin maliyyə aktivinin tanınması dayandırılır və yeni maliyyə aktivi müvafiq əməliyyat xərcləri daxil olmaqla ədalətli dəyərdə tanınır. Modifikasiya ilə əlaqədar daxil olan istənilən haqların uçotu aşağıdakı şəkildə aparılır:

- yeni aktivin ədalətli dəyərinin müəyyən edilməsi zamanı nəzərə alınan haqlar və müvafiq əməliyyat xərclərinin ödəniş haqları aktivin ilkin qiymətləndirilməsinə daxil edilir; və
- digər haqlar tanınmanın dayandırılması üzrə gəlir və ya zərərin bir hissəsi kimi mənfəət və ya zərərdə tanınır.

Mövcud maliyyə aktivləri və ya maliyyə öhdəlikləri üzrə pul vəsaitlərində modifikasiya mövcud müqavilə şərtlərindən qaynaqlandığı təqdirdə modifikasiya sayılmır. Məsələn, kredit sövdələşməsi Cəmiyyətdən tələb etdiyi təqdirdə ARMB-nın əsas faiz dərəcələrindəki dəyişikliklərə görə Cəmiyyətin faiz dərəcələrinə tətbiq etdiyi modifikasiyalar.

Cəmiyyət modifikasiyanın əhəmiyyətli olub-olmadığına, yəni ilkin maliyyə aktivi və dəyişikliyə uğramış və ya yeri dəyişdirilmiş maliyyə aktivi üzrə pul vəsaitlərinin əhəmiyyətli dərəcədə fərqləndiyinə dair kəmiyyət və keyfiyyət qiymətləndirməsi aparır. Cəmiyyət kəmiyyət və keyfiyyət amillərinə əsaslanaraq modifikasiyanın əhəmiyyətli olub-olmadığını növbəti ardıcıllıqda qiymətləndirir: keyfiyyət amilləri, kəmiyyət amilləri, keyfiyyət və kəmiyyət amillərinin birgə təsiri.

## 3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)

### Maliyyə aktivləri (davamı)

Pul vəsaitləri əhəmiyyətli dərəcədə fərqləndiyi təqdirdə ilkin maliyyə aktivi üzrə pul vəsaitlərinə dair müqavilə hüquqlarının vaxtı bitmiş sayılır. Bu qiymətləndirmə zamanı Cəmiyyət maliyyə öhdəliklərinin tanınmasının dayandırılması təlimatını nümunə götürür.

Cəmiyyət aşağıdakı keyfiyyət amillərinə əsaslanaraq modifikasiyanın əhəmiyyətli olduğu qənaətinə gəlir:

- maliyyə aktivinin valyutasının dəyişməsi;
- maliyyə aktivinin şərtlərində əsas məbləğ və faiz ödəmələri meyarına uyğunsuzluqla nəticələnən dəyişiklik (məs., konvertasiya funksiyasının əlavə edilməsi).

Pul vəsaitləri borcalanın maliyyə çətinlikləri yaşadığı zaman modifikasiya edilərkən, adətən modifikasiyanın məqsədi şərtləri əhəmiyyətli dərəcədə fərqlənən yeni aktiv yaratmaq deyil, ilkin müqavilə şərtlərinin mümkün qədər bərpa edilməsidir. Cəmiyyət maliyyə aktivini pul vəsaitlərinin bağışlanması ilə nəticələnəcək şəkildə dəyişməyi planlaşdırdıqda ilk öncə aktiv qisminin modifikasiyadan əvvəl silinib-silinməyəcəyini nəzərə alır (borcların silinməsi siyasəti aşağıda təqdim edilib). Bu yanaşma kəmiyyət qiymətləndirməsinə təsir göstərir və belə hallarda tanınmanın dayandırılması meyarlarının heç də həmişə nəzərə alınmadığını göstərir. Daha sonra Cəmiyyət modifikasiyanın əhəmiyyətli olub-olmadığına dair keyfiyyət qiymətləndirməsi aparır.

Amortizasiya edilmiş dəyərdə ölçülən maliyyə aktivinin modifikasiyası maliyyə aktivinin tanınmasının dayandırılması ilə nəticələnmədikdə Cəmiyyət ilk öncə aktivin ilkin effektiv faiz dərəcəsindən istifadə etməklə maliyyə aktivinin ümumi qalıq dəyərini təkrar hesablayır və alınmış düzəlişi mənfəət və ya zərərdə modifikasiya üzrə gəlir və ya zərər kimi tanıyır. Üzən dərəcəli maliyyə aktivlərində modifikasiya üzrə gəlir və ya zərəri hesablamaq üçün istifadə edilən ilkin effektiv faiz dərəcəsinin modifikasiya anında mövcud bazar şərtlərini əks etdirməsi məqsədilə düzəlişlər edilir. Modifikasiyanın bir hissəsi olan istənilən ödənilmiş xərclər və haqlar və alınan haqlar modifikasiya edilmiş maliyyə aktivinin ümumi qalıq dəyərində əks etdirilir və modifikasiya edilmiş maliyyə aktivinin qalan müddəti boyu amortizasiya edilir.

Modifikasiya borcalanın maliyyə çətinlikləri ilə bağlı həyata keçirildiyi təqdirdə gəlir və ya zərər dəyərsizləşmə zərərləri ilə birlikdə təqdim edilir. Digər hallarda isə effektiv faiz üsulundan istifadə etməklə hesablanmış faiz gəliri kimi təqdim edilir. Borcalanın kredit məbləğini vaxtından əvvəl əhəmiyyətli cəriməyə məruz qalmadan faizsiz ödəmək seçimi olduğu sabit dərəcəli kreditlər üçün Cəmiyyət faiz dərəcəsini üzən dərəcəli maliyyə alətləri üzrə təlimatdan çıxış edərək cari bazar dərəcəsinə uyğun dəyişir. Bu o deməkdir ki, effektiv faiz dərəcəsinə də gözləntilərə uyğun düzəlişlər edilir.

### Maliyyə öhdəlikləri

Cəmiyyət öz maliyyə öhdəliklərini amortizasiya dəyərində qiymətləndirilən kimi təsnif edir. Maliyyə öhdəlikləri ilkin tanınmadan sonra təkrar təsnif edilmir.

Cəmiyyət maliyyə öhdəliyinin tanınmasını şərtləri dəyişdikdə və dəyişmiş öhdəlik üzrə pul vəsaitləri əhəmiyyətli dərəcədə fərqləndikdə dayandırır. Belə olan halda dəyişmiş şərtlər əsasında yeni maliyyə öhdəliyi ədalətli dəyərdə tanınır. Maliyyə öhdəliyinin qalıq dəyərindəki fərq ləğv edilir və yeni maliyyə öhdəliyi dəyişmiş şərtlərlə mənfəət və ya zərərdə tanınır. Ödənilmiş kompensasiyaya ötürülmüş qeyri-maliyyə aktivləri (əgər varsa) və yeni dəyişdirilmiş maliyyə öhdəliyi daxil olmaqla öhdəliklər daxildir.

Cəmiyyət keyfiyyət amilləri, kəmiyyət amilləri və birlikdə keyfiyyət və kəmiyyət amillərini nəzərə alaraq modifikasiyanın əhəmiyyətli olub-olmamasının kəmiyyət və keyfiyyət qiymətləndirməsini aparır. Cəmiyyət aşağıdakı keyfiyyət amillərinə əsaslanaraq modifikasiyanın əhəmiyyətli olduğu qərarına gəlir:

- maliyyə öhdəliyinin valyutasının dəyişməsi;
- konvertasiya funksiyasının daxil edilməsi;
- maliyyə öhdəliyində subordinasiyanın dəyişməsi.

**3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)**

**Maliyyə öhdəlikləri (davamı)**

Yeni şərtlərə əsasən, alınmış haqlar çıxılmaqla ödənilmiş haqlar daxil və ilkin effektiv faiz dərəcəsinə əsasən diskontlaşdırılmaqla, diskontlaşdırılmış cari dəyər ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin diskontlaşdırılmış cari dəyərindən ən azı 10 faiz fərqləndikdə kəmiyyət qiymətləndirməsinin şərtləri əhəmiyyətli dərəcədə fərqlənir.

Maliyyə öhdəliyində modifikasiya tanınmanın dayandırılmasına səbəb olmadıqda öhdəliyin amortizasiya edilmiş dəyəri dəyişikliyə uğramış pul vəsaitlərinin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılması və alınan gəlir və zərərin mənfəət və ya zərərdə tanınması ilə təkrar hesablanır. Üzən dərəcəli maliyyə öhdəlikləri üçün dəyişmiş gəlir və ya zərəri hesablamaq məqsədilə istifadə edilən ilkin effektiv faiz dərəcəsinə modifikasiya zamanı cari bazar şərtlərini əks etdirməsi üçün düzəlişlər edilir. Bununla bağlı yaranan hər hansı xərclər və ya haqlar öhdəliyin qalıq dəyərinə düzəliş kimi tanınır və alət üzərində effektiv faiz dərəcəsinin təkrar hesablanması yolu ilə dəyişikliyə uğramış maliyyə öhdəliyinin qalan müddəti üzrə amortizasiya edilir.

**Gözlənilən kredit zərərləri**

Cəmiyyət zərər ehtiyatlarını, 12 aylıq GKZ kimi hesablanan aşağıdakılar istisna olmaqla, ömürlük GKZ məbləğinə bərabər qiymətləndirir:

- hesabat tarixində kredit riski aşağı müəyyən edilən borc alətləri;
- ilkin tanınmadan sonra kredit riski əhəmiyyətli dərəcədə artmayan digər maliyyə alətləri.

12 aylıq GKZ hesabat tarixindən sonra 12 ay ərzində maliyyə alətinin defolt hadisəsindən yaranması GKZ hissəsidir. 12 aylıq GKZ tanınan maliyyə alətləri "1-ci Mərhələ" maliyyə aləti adlandırılır.

Ömürlük GKZ maliyyə alətinin gözlənilən müddəti ərzində mümkün bütün defolt hadisələrindən yaranan GKZ-dir. Ömürlük GKZ tanınan, kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artan, lakin kredit üzrə dəyərsizləşməyən maliyyə alətləri "2-ci Mərhələ"yə, kredit üzrə dəyərsizləşən maliyyə alətləri isə "3-cü Mərhələ"yə aid edilir.

**GKZ-nin ölçülməsi**

GKZ kredit zərərlərinin ehtimal əsasında ölçülmüş qiymətləndirilməsidir və aşağıdakı kimi ölçülür:

- hesabat tarixində kredit üzrə dəyərsizləşməmiş maliyyə aktivləri: bütün gözlənilən əldə edilməmiş pul vəsaitlərinin cari dəyəri – yəni müqavilə əsasında müəssisəyə ödəniləcək pul vəsaitləri ilə Cəmiyyətin əldə etməyi gözlədiyi pul vəsaitləri arasındakı fərq;
- hesabat tarixində kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri: ümumi qalıq dəyəri ilə hesablanmış gələcək pul axınları arasındakı fərq.

**Kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri**

Hər hesabat tarixində Cəmiyyət amortizasiya edilmiş dəyərdə hesablamış maliyyə aktivlərinin kredit üzrə dəyərsizləşib-dəyərsizləşmədiyini qiymətləndirir. Maliyyə aktivi onun gələcək pul axınlarına mənfi təsir göstərən bir və ya daha çox hadisə baş verdikdə "kredit üzrə dəyərsizləşir". Maliyyə aktivinin kredit üzrə dəyərsizləşməsinin sübutlarına aşağıdakı müşahidə edilə bilən məlumatlar daxildir:

- borcalan Cəmiyyətə olan hər hansı kredit ödənişinin vaxtını 90 gündən çox gecikdirir;
- bank hesabından istifadədə məhdudiyyətlər və ya banklarda depozit və yatırımlar üzrə gecikmiş ödənişlər 7 gündən çox çəkir;
- borcalanın mühüm maliyyə çətinliyi ilə üzləşməsi;
- Cəmiyyətin əks təqdirdə nəzərdən keçirməyəcəyi şərtlərlə kredtin restrukturlaşdırılması.

**3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)**

**Kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (davamı)**

Borcalanın maliyyə vəziyyətinin pisləşməsinə görə şərtləri yenidən razılaşdırılmış kredit, müqavilə üzrə pul vəsaitlərinin ödənilməyəcəyi riskinin əhəmiyyətli dərəcədə azaldığı və dəyərsizləşmənin başqa əlamətlərinin olmadığı hallar istisna olmaqla, kredit üzrə dəyərsizləşmiş sayılır. Əlavə olaraq, ödənişi 90 gündən çox gecikdirilmiş pərakəndə kredit dəyərsizləşmiş sayılır.

**Maliyyə vəziyyəti haqqında hesabatda ehtimal olunan kredit zərəri üçün ehtiyatın təqdimatı**

Amortizasiya edilmiş dəyərdə ölçülən maliyyə aktivlərinə xalis investisiyaların ehtimal olunan kredit zərərləri üzrə ehtiyat maliyyə vəziyyət haqqında hesabatda aktivlərin ümumi qalıq dəyərindən çıxılma kimi təqdim olunur.

**Borcların silinməsi**

Kreditlər maliyyə aktivlərini tam və ya qismən bərpa etmək üçün əsaslı gözlənti olmadığı təqdirdə tam və ya qismən silinir. Bu adətən Cəmiyyət borcalanın silinməsi nəzərdə tutulan məbləği ödəmək üçün kifayət qədər pul vəsaiti yaradacaq aktivlərinin və ya gəlir mənbəyinin olmadığını müəyyən etdikdə baş verir. Bu qiymətləndirmə aktiv səviyyəsində həyata keçirilir.

Silinmiş məbləğlərin bərpası mənfəət və ya zərər və digər məcmu gəlir hesabatında "maliyyə alətlərinin dəyərsizləşməsi zərərləri"nə daxil edilir.

Silinmiş maliyyə aktivləri ödəniləcək məbləğlərin bərpası üzrə Cəmiyyət prosedurlarına əməl etmək məqsədilə hüquqi tədbirlərin predmeti olaraq qalır.

**Gəlir və xərclərin tanınması**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri üzrə effektiv faiz dərəcəsinin tərkib hissəsi olan haqq və komissiya gəlirləri və xərcləri effektiv faiz dərəcəsinə daxil edilir.

Digər haqq və komissiya xərcləri mənfəət və ya zərərdə müvafiq əməliyyat və xidmətlər göstərildiyi zaman əks olunur.

**Müştərilərə verilmiş kreditlər**

İlin sonuna olan maliyyə vəziyyəti haqqında hesabatda "Müştərilərə verilmiş kreditlər" bəndinə müştərilərə verilmiş amortizasiya edilmiş dəyərdə qiymətləndirilən kreditlər daxildir; onlar ilk olaraq məxsusi birbaşa əməliyyat xərcləri əlavə edilməklə ədalətli dəyərdə, daha sonra effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərdə qiymətləndirilir.

**Əmlak və avadanlıqlar**

Əmlak və avadanlıqlar hər hansı yığılmış köhnəlmə və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əmlak və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcudluğunu qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Əmlak və avadanlıqların qalıq dəyəri onların bərpa edilə bilən dəyərindən çox olduqda, bərpa edilə bilən məbləğədək silinir və fərq mənfəət və ya zərər haqqında hesabatda dəyərsizləşmə zərəri kimi uçota alınır.

## 3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)

### Əmlak və avadanlıqlar (davamı)

Əmlak və avadanlıqların silinməsi üzrə yaranmış gəlir və zərər onların qalıq məbləğinə münasibətdə müəyyən edilir və mənfəət və ya zərər haqqında hesabatda gəlir/(zərər) kimi uçota alınır.

Təmir və istismar xərcləri baş verdiyi zaman mənfəət və zərər haqqında hesabatda uçota alınır.

Köhnəlmə fərdi aktivlərin ehtimal olunan faydalı iqtisadi ömrü ərzində azalan qalıq metodu əsasında hesablanır. Amortizasiya, aktivin əldə olunduğu tarixindən hesablanmağa başlayır. Aktivlərin ehtimal olunan faydalı iqtisadi ömrü aşağıdakı kimidir:

| | |
|---|---|
| Mebel və ofis ləvazimatları | 3-5 il |
| Ofis və kompüter avadanlığı | 3-5 il |
| Nəqliyyat vasitələri | 3-5 il |

Əmlak və avadanlıqlar hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak və avadanlıq vasitələrinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərər belə aktivlərin qalıq dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabında tanınır.

### Qeyri-maddi aktivlər

Alınmış qeyri-maddi aktivlər ilkin dəyərdən amortizasiya və dəyərsizləşmə çıxıldıqdan sonra göstərilir. Alınmış kompüter proqramı təminatı satınalmaq və istifadəyə yararlı hala gətirmək üçün çəkilmiş bütün xərclər əsasında kapitallaşdırılır.

Amortizasiya azalan qalıq metodu əsasında qeyri-maddi aktivlərin təxmin edilən istifadə müddəti ərzində mənfəət və zərərdə tanınır. Qeyri-maddi aktivlərin ehtimal edilən istifadə müddəti 5-10 ildir.

### Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi

Dəyərsizləşmənin əlamətlərini aşkarlamaq məqsədi ilə hər hesabat tarixində, təxirə salınmış vergilərdən başqa digər qeyri-maliyyə aktivlərinin qiymətləndirilməsi aparılır. Qeyri-maliyyə aktivlərinin bərpa oluna bilən dəyəri satış xərcləri və istifadə dəyəri çıxılmaqla ədalətli dəyərin ən böyük qiymətidir. İstifadə dəyəri qiymətləndirilərkən, təxmin edilən gələcək pul vəsaitləri zaman dəyəri və aktivlə bağlı xüsusi risklərin cari bazar qiymətləndirmələrini əks etdirən vergidən əvvəlki diskont dərəcəsi əsasında cari dəyərinədək azaldılır. Digər aktivlərdən asılı olmadan gəlir gətirməyən aktiv üçün bərpa oluna bilən məbləğ həmin aktivin aid olduğu gəlir gətirən qrup üzrə müəyyənləşdirilir. Aktivin və ya gəlir gətirən qrupun qalıq dəyəri bərpa dəyərindən artıq olduqda dəyərsizləşmə üzrə zərərlər qeydə alınır.

Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə bütün zərərlər mənfəət və ya zərərdə əks olunur və yalnız bərpa dəyərinin müəyyənləşdirilməsi zamanı istifadə edilmiş ehtimallarda dəyişiklik baş verdiyi halda geri qaytarıla bilər. Dəyərsizləşmə üzrə zərər yalnız aktivin qalıq dəyəri həmin zərər uçota alınmadığı halda müəyyənləşdiriləcək qalıq dəyərindən (köhnəlmə və ya amortizasiya çıxılmaqla) artıq olmaması şərti ilə bərpa oluna bilər.

### Satış üçün saxlanılan aktivlər

Satış üçün saxlanılan aktivlər, Cəmiyyət tərəfindən vaxtı keçmiş kreditlərin ödənilməsi üçün əldə etdiyi maliyyə və qeyri-maliyyə aktivlərini təmsil edir. Belə aktivlər, xarakterindən və bu aktivlərin bərpası ilə əlaqədar Cəmiyyətin niyyətindən asılı olaraq bina və avadanlıqlar, digər maliyyə aktivləri, investisiya mülkiyyəti və ya digər aktivlərdəki mal-material ehtiyatlar daxil olduqda və ya əldə edildikdə ədalətli dəyərlə tanınır və sonradan onlar üçün uçot siyasətinə uyğun olaraq yenidən qiymətləndirilir və uçota alınır.

## 3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)

**Buraxılmış borc qiymətli kağızları**

Borc qiymətli kağızları amortizasiya edilmiş dəyərdə təqdim olunur. Cəmiyyət öz buraxdığı borc qiymətli kağızlarını aldıqda onlar maliyyə vəziyyəti haqqında hesabatdan çıxarılır və öhdəliyin qalıq dəyəri ilə istiqrazın alınmasına xərclənmiş məbləğ arasındakı fərq borcun erkən ödənilməsindən yaranan gəlirə daxil edilir.

**Müddətli borc öhdəlikləri**

Müddətli borc öhdəliklərinə qeyri-rezident banklardan və maliyyə təşkilatlarından götürülmüş sabit ödəniş tarixi və sabit və ya dəyişkən faiz dərəcələri olan kreditlər daxildir. Müddətli borc öhdəlikləri amortizasiya edilmiş dəyərdə hesablanılır.

**Ehtiyatlar**

Cəmiyyətin keçmiş dövrlərdə baş vermiş hadisə nəticəsində müəyyən hüquqi və ya konstruktiv öhdəliyi olduqda və həmin öhdəliyin ödənilməsi üçün iqtisadi faydaların məxaricinin tələb olunacağı ehtimal olunduqda, ehtiyat maliyyə vəziyyəti haqqında hesabatda əks olunur. Təsiri əhəmiyyətli olduqda, ehtiyatlar pul vəsaitlərinin vaxt baxımından dəyərinin cari bazar qiymətləndirmələrini əks etdirən vergiqoymadan əvvəlki dərəcə və müvafiq olarsa, həmin öhdəliyə aid olan xüsusi risklər əsasında gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılması yolu ilə müəyyənləşdirilir.

**Mənfəət vergisi**

Mənfəət vergisi cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir. Mənfəət vergisi mənfəət və zərərdə tanınır, bu vergi digər məcmu gəlirlərlə və ya bilavasitə kapitalda qeydə alınan əməliyyatlarla bağlı olduqda isə, digər məcmu gəlirdə və ya bilavasitə kapitalda tanınır.

**Cari vergi**

Cari vergi xərclərinə il üzrə vergilərə cəlb olunan gəlir üzrə gözlənilən ödənilməli vergilər və əvvəlki illər üçün ödənilməli vergilərdə hər hansı düzəlişlər daxildir. Həmin xərclər hesabat tarixində qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müəyyənləşdirilir.

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi maliyyə hesabatlılığı məqsədləri üçün istifadə olunan aktivlərin və öhdəliklərin qalıq dəyərləri ilə vergiqoyma məqsədləri üçün istifadə olunan məbləğləri arasında olan müvəqqəti fərqlər üzrə hesablanır. Təxirə salınmış vergi nə uçot, nə də vergilərə cəlb edilən mənfəətə və ya zərərə təsir göstərməyən əməliyyatda aktiv və ya öhdəliklərin ilkin tanınması üzrə müvəqqəti fərqlər üçün uçota alınmır.

Təxirə salınmış verginin müəyyənləşdirilməsi hesabat dövrünün sonuna Cəmiyyətin öz aktiv və öhdəliklərinin qalıq dəyərini bərpa etməyi gözlədiyi formaya əsaslanan vergi nəticələrini əks etdirir.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş qanunlara uyğun olaraq, müvəqqəti fərqlərə onlar ləğv ediləcəyi zaman tətbiq ediləcək gözlənilən vergi dərəcələri əsasında müəyyən olunur.

Müvəqqəti fərqlərin, istifadə edilməmiş vergi itkilərinin və kreditlərin əvəzini ödəyə biləcək gələcək vergi tutula bilən gəlirlərin mövcud olacağı ehtimal olunduqda, təxirə salınmış vergi aktivi uçota alınır. Əlaqədar vergi gəlirinin reallaşdırılması ehtimal olunmadıqda, təxirə salınmış vergi aktivi azaldılır.

**3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)**

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı bütün iştirakçılar tərəfindən qoyulmuş kapitalın məbləğidir. Səhmlərin ümumi sayı Cəmiyyətin nizamnamə kapitalında iştirakçılar arasında mütənasib bölgüdür. Cəmiyyət Təsisçilərin Ümumi Yığıncağının təsdiqi ilə nizamnamə kapitalını artıra və ya azalda bilər.

**Dividendlər**

Cəmiyyətin dividendləri elan edib ödəmək imkanları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada tənzimlənir.

Adi səhmlərə aid olan dividendlər elan edildiyi müddətdə bölüşdürülməmiş mənfəətdə əks olunur.

**Effektiv faiz dərəcəsi**

Faiz gəlirləri və xərcləri effektiv faiz üsulundan istifadə etməklə mənfəət və zərərdə tanınır. "Effektiv faiz dərəcəsi" maliyyə alətinin gözlənilən istifadə müddəti boyu gələcək ödənişləri və gəlirləri dəqiq olaraq:

- maliyyə aktivinin qalıq dəyəri; və ya
- maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinə diskontlaşdıran dərəcədir.

Alınmış və yaradılmış kredit üzrə dəyərsizləşmiş aktivlər istisna olmaqla, digər maliyyə alətləri üçün effektiv faiz dərəcəsini hesablayarkən Cəmiyyət gələcək pul vəsaitlərini, maliyyə alətlərinin bütün müqavilə şərtlərini nəzərə almaqla, kredit zərərlərini nəzərə almadan qiymətləndirir. Alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üçün kredit üzrə uyğunlaşdırılmış effektiv faiz dərəcəsi, ehtimal olunan kredit zərərləri daxil, gözlənilən gələcək pul vəsaitləri nəzərə alınmaqla hesablanır.

Effektiv faiz dərəcəsinin hesablanmasına effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsi olan əməliyyat xərcləri və ödənilmiş və ya alınmış haqlar və ya bəndlər daxildir. Əməliyyat xərclərinə maliyyə aktivi və ya maliyyə öhdəliyinin alınmasına və ya verilməsinə bilavasitə tətbiq edilə bilən məxsusi xərclər daxildir.

**Amortizasiya edilmiş dəyər və ümumi qalıq dəyəri**

Maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin amortizasiya edilmiş dəyəri maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ilkin tanınması zamanı əsas məbləğ üzrə ödəmələri çıxmaqla, ilkin məbləğ və ödəniş müddətinin sonundakı məbləğ arasında hər hansı fərqin effektiv faiz üsulu ilə xalis amortizasiyanı daxil etməklə və ya çıxmaqla və (maliyyə aktivləri üçün) hər hansı ehtimal olunan kredit zərəri ehtiyatına uyğunlaşdırmaqla hesablanan məbləğdir.

Amortizasiya dəyərində hesablanan "maliyyə aktivinin ümumi qalıq dəyəri" maliyyə aktivinin hər hansı ehtimal olunan kredit zərəri ehtiyatına uyğunlaşdırılmazdan əvvəl amortizasiya edilmiş dəyəridir.

**Faiz gəlirləri və faiz xərclərinin hesablanması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyinin effektiv faiz dərəcəsi maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınması zamanı hesablanır. Faiz gəlirləri və ya xərclərinin hesablanması zamanı effektiv faiz dərəcəsi aktivin (aktiv kredit üzrə dəyərsizləşmədikdə) ümumi qalıq dəyərinə və ya öhdəliyin amortizasiya edilmiş dəyərinə tətbiq edilir.

İlkin tanınmadan sonra kredit üzrə dəyərsizləşən maliyyə aktivlərinin faiz gəlirləri isə effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya edilmiş dəyərinə tətbiq etməklə hesablanır. Aktiv artıq kredit üzrə dəyərli olduqda faiz gəlirləri yenə ümumi qalıq dəyərində hesablanır.

Maliyyə aktivlərinin nə zaman kredit üzrə dəyərsizləşdiyi haqqında məlumat üçün 3 saylı Qeydə baxın.

## 3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı (davamı)

### Təqdimat

Məcmu gəlir haqqında hesabatda təqdim olunan effektiv faiz üsulu ilə hesablanan faiz gəlirlərinə amortizasiya edilmiş dəyərdə hesablanan maliyyə aktivləri üzrə faizlər daxildir.

Məcmu gəlir haqqında hesabatda təqdim olunan faiz xərclərinə amortizasiya edilmiş dəyərdə hesablanan maliyyə öhdəlikləri daxildir

### Xarici valyutanın çevrilməsi

Monetar aktivlər və öhdəliklər ARMB-nin müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq Cəmiyyətin hər bir müəssisəsinin funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin ARMB-nin ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Cəmiyyətin hər bir müəssisəsinin funksional valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə (xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir kimi) tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o cümlədən pay alətləri ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə təqdimat valyutasına çevrilir.

Məzənnə dəyişikliklərinin xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə təsiri ədalətli dəyərin dəyişməsindən yaranan gəlir və ya zərərin bir hissəsi kimi əks etdirilir.

İl sonunda xarici valyuta qalıqlarının çevrilməsində Cəmiyyət tərəfindən istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| AZN/1 ABŞ dolları | 1.7000 | 1.7000 |
| AZN/ 1 Avro | 2.0022 | 1.7724 |

## 4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Cəmiyyət növbəti il ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti il ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

### GKZ ehtiyatının ölçülməsi

GKZ-nin ölçülməsi metodologiyanın, modelin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirdən mühüm bir təxmindir. GKZ ölçülməsi üzrə metodologiya 21 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri ehtiyatı üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı ("DE"), defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ") və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makroiqtisadi ssenarilər modelləri. Cəmiyyət müntəzəm olaraq ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Gələcəkyönümlü məlumatlar da daxil olmaqla, GKZ ölçülməsi üzrə ətraflı məlumatlar 21 saylı Qeyddə açıqlanır.

## 4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

**Biznes modelinin qiymətləndirilməsi**

Biznes modeli maliyyə aktivinin təsnifləşdirilməsini təyin edən amildir. Rəhbərlik biznes modellərinin dəyərləndirilməsi zamanı maliyyə alətləri üzrə birləşdirmə və portfelə aid etmə səviyyəsini təyin edərkən mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını dəyərləndirərkən Cəmiyyətin rəhbərliyi bu satışların müntəzəmliyi, zamanı və dəyəri barədə tarixi məlumatları, eləcə də satışın səbəbləri və gələcək satışlarla bağlı proqnozları nəzərə alır. Kreditin pisləşməsi ilə əlaqədar potensial itkilərin minimal həddə salınması ilə bağlı həyata keçirilən satış əməliyyatları "toplamaq üçün saxlanılma" biznes modelinin parametrlərinə uyğun gəlir. Alətin kredit riskinin idarə olunması ilə bağlı olmayan, müddəti bitməmiş həyata keçirilən digər satışlar da, fərdi və kollektiv qaydada müntəzəm olmadıqda və dəyər olaraq əhəmiyyət kəsb etmədikdə "toplamaq üçün saxlanılma" biznes modelinin çərçivəsində dəyərləndirilir. Cəmiyyətin rəhbərliyi satış əməliyyatlarının əhəmiyyətlilik səviyyəsini bu satışların dəyərinin biznes modeli üzrə qiymətləndirilən portfelin dəyərinə olan nisbəti şəklində həmin portfelin orta müddəti üzrə təhlil edir. Əlavə olaraq, yalnız stressli vəziyyətlərdə və ya Cəmiyyətin nəzarətindən kənar olan, təkrarlanmayan və Cəmiyyət tərəfindən gözlənilməyən ayrıca bir hadisəyə cavab məqsədilə həyata keçirilməsi güman edilən satış əməliyyatları biznes modelinin məqsədləri üçün təsadüfi sayılır və müvafiq maliyyə alətlərinin təsnifləşdirilməsi prosesinə təsir göstərmir.

"Toplamaq üçün saxlanılma və satış" biznes modeli dedikdə, aktivlərin əsasən nağd vəsaitlərin toplanılması üçün saxlanılması ehtiva edilir, yalnız bu biznes modelinin məqsədlərinə nail olmaq üçün likvidlik ehtiyacının idarə olunması, müəyyən bir gəlir göstəricilərinə nail olunması və ya maliyyə aktivlərinin müddətlərinin bu aktivləri maliyyələşdirmək üçün istifadə edilən maliyyə öhdəliklərinin müddətlərinə uyğunlaşdırılması kimi bir sıra satış əməliyyatları da model çərçivəsində nəzərə alınır.

Qalıq kateqoriyası elə maliyyə aktivləri portfellərindən ibarətdir ki, nağd vəsaitlərin reallaşdırılmasının əsas təyinatı satış vasitəsilə, məsələn ticarət məqsədilə satışın elementlərinin açıq şəkildə nəzərə çarpan olduğu hallar üçün nəzərdə tutulmuşdur. Müqavilə üzrə pul vəsaitlərinin toplanması bu biznes modeli üçün çox vaxt təsadüfi olur.

**Pul vəsaitlərinin axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının dəyərləndirilməsi ("YƏMFÖ")**

Nağd vəsaitlər axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının təyin edilməsi mülahizələrdən istifadəni tələb edir. Pulun zaman dəyəri elementi müəyyən hallarda, məsələn müqavilə üzrə faiz dərəcəsi dövri olaraq dəyişdirildiyi, amma bu dəyişikliklərin tezliyi borc aləti üzrə nəzərdə tutulan əsas faiz dərəcəsi göstəricisinə uyğun olmadığı hallarda dəyişdirilə bilər. Buna misal olaraq faizləri üç aylıq banklararası faiz dərəcəsinə uyğun olaraq ödənilən, yalnız faiz dərəcəsinin hər ay düzəldildiyi maliyyə alətlərini göstərmək olar. Pulun zaman dəyərinin dəyişdirilməsinin təsiri müvafiq alət üzrə nağd pul vəsaitləri axınının YƏMFÖ xarakteli bənzər maliyyə aləti üzrə nağd pul vəsaitləri axını ilə müqayisə edilərək dəyərləndirilir. Dəyərləndirmə məntiqli görünən bütün mümkün ssenarilər üçün, o cümlədən maliyyə bazarlarında baş verməsi mümkün olan maliyyə stresi vəziyyətləri üçün aparılmışdır.

Nağd pul vəsaitləri ilə bağlı yaranan ssenarinin bənzər alətlər üzrə mövcud olan göstəricilərdən fərqli olduğu hallarda, dəyərləndirilən alət üzrə yaranan nağd pul vəsaitləri YƏMFÖ olaraq nəzərə alınmır və bu alət MZVƏD maliyyə aləti olaraq təsnifləşdirilir.

Cəmiyyətin rəhbərliyi müqavilə üzrə nəzərdə tutulan nağd pul vəsaitlərinin axınını dəyişdirmək qabiliyyətinə malik olan müqavilə şərtlərini təyin etmiş və nəzərə almışdır. Kredit sazişinin müddəalarına görə vaxtından öncə ödənişlərin mümkün olması və bu ödənişlərin əsas məbləğ və hesablanmış faizlərlə, eləcə də öncədən ödənişlə bağlı müştəridən alınmalı olan haqq və komissiyalarla bağlı olması halında YƏMFÖ üzrə kriteriyalar yerinə yetirilmiş sayılır.

## 4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr (davamı)

**Pul vəsaitlərinin axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının dəyərləndirilməsi ("YƏMFÖ") (davamı)**

Aktiv üzrə əsas məbləğə ilkin tanınma zamanı mövcud olan ədalətli dəyərlə sonrakı dövrlərdə əsas məbləğ üzrə ödənişlər (yəni effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz ödənişləri nəzərə alınmadan yerdə qalan məbləğ) arasındakı fərq aid edilir. Bu prinsipə istisna olaraq standart həm də müəyyən ilkin ödəmə xüsusiyyətlərinə malik olan və aşağıdakı YƏMFÖ şərtlərinə cavab verən alətlərin də nəzərə alınmasına icazə verir: (i) aktiv ilkin olaraq mükafat və ya diskontla hazırlanmışdır, (ii) ilkin ödəniş məbləği müqavilə üzrə əsas məbləği və hesablanmış faizləri və müqavilənin vaxtından əvvəl ləğvi üçün ağlabatan əlavə kompensasiyanı əks etdirir və (iii) öncədən ödəniş imkanı yaradan müddəanın ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyətli sayılmır.

**Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu**

Cəmiyyət adi fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 9 saylı MHBS-yə uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin, həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat 6 saylı Qeyddə açıqlanır.

**Ədalətli dəyər**

Cəmiyyətin rəhbərliyi, mənfəət və ya zərər hesabına ədalətli dəyərdə göstərilən maliyyə aktivlərinin (əsas brokerdən alınacaq vəsaitlər və məhdudlaşdırılmış əmanətlər) və maliyyə öhdəliklərinin (müştərilərə ödəniləcək vəsaitlər) ədalətli dəyərinin müəyyənləşdirilməsində əhəmiyyətli dərəcədə təxminlərdən istifadə edir. Daha ətraflı məlumat üçün 24 saylı Qeydə nəzər salın.

**Cari vergilər**

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir.

Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunverciliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticədə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Cəmiyyətə əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, vergi və gömrük qurumları Cəmiyyətin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini nəzərdən keçirə bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər.

## 5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Cari ildə Cəmiyyət Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) və MUBSŞ -in Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2025-ci il tarixində bitən hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

Aşağıdakı dəyişikliklər 01 yanvar 2025-ci ildən qüvvəyə minib.

**5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)**

**21 saylı MUBS-Mübadilə qabiliyyətinin olmamasına dəyişikliklər (15 avqust 2023-cü il tarixində dərc olunub və 01 yanvar 2025-ci il tarixindən başlayan və ya sonrakı illik dövrlər üçün qüvvəyə minir)**

MUBSŞ Müəssisələrə iki valyuta arasında mübadilə qabiliyyətinin qiymətləndirilməsinə və mübadilə qabiliyyəti olmadıqda spot məzənnənin müəyyən edilməsinə kömək etmək üçün 2023-cü il avqust ayında 21 saylı MUBS-yə dəyişikliklər dərc edib. Cəmiyyət dəyişikliklərdən xüsusi məqsəd üçün hesablama tarixində digər valyutaya mübadilə olunmayan xarici valyutada olan əməliyyatları olduqda təsirlənir.

21 saylı MUBS-yə dəyişikliklər Cəmiyyətin spot məzənnənin necə təxmin edilməsinin detallı tələblərini təmin etmir. Əvəzinə, onlar Cəmiyyətin hesablama tarixinə olan spot məzənnəni müəyyən edə biləcəyi qayda təyin edirlər. Yeni tələbləri tətbiq edəndə, müqayisəli məlumatları yeniləməyə icazə verilmir. İlkin tətbiq edilən zaman yenilənmiş məbləğlərin ehtimal olunan spot məzənnə ilə bölüşdürülməmiş mənfəətə və ya məcmu məzənnə fərqləri üzrə ehtiyata dəyişikliklərin edilməsi tələb olunur.

Əksi qeyd olunmadığı təqdirdə, yuxarıda qeyd olunan dəyişikliklərin tətbiqi Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmamışdır.

**Yeni uçot qaydaları**

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət bu yeni və dəyişiklik edilmiş standartları və şərhləri, əgər tətbiq olunarsa, qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

**Maliyyə alətlərinin ölçülməsinə və təsnifatlaşdırılmasına olunan dəyişikliklər- 9 saylı MHBS və 7 saylı MHBS -yə olunan dəyişikliklər (30 may 2024-cü il tarixində dərc olunub və 01 yanvar 2026-cı il tarixindən başlayan və ya sonrakı illik dövrlər üçün qüvvəyə minir).**

30 may 2024-cü il tarixində MUBSŞ 9 saylı MHBS və 7 saylı MHBS-yə olunan dəyişiklikləri dərc edib:

- Bəzi maliyyə aktivlərinin və öhdəliklərinin tanınma və silinmə tarixlərinin aydınlaşması, elekton nağd pul köçürmə sistemi ilə ödənilən bəzi maliyyə öhdəlikləri üçün istisnadır;
- Maliyyə aktivinin yalnız əsas borc və faizlərin ödəniş şərtlərini (SPPİ) qarşılandığını qiymətləndirilməsi üçün növbəti təlimatların aydınlaşması və əlavə edilməsi;
- Nağd pul axınını dəyişə biləcək müqavilə şərti olan müəyyən alətlərin yeni açıqlamalarının əlavə olunması (ətraf mühitin, Cəmiyyətin və dövlət hədəflərinin çatması ilə bağlı xüsusiyyətləri olan bəzi alətlər); və
- Digər ümumi gəlirlər vasitəsi ilə ədalətli dəyərlə formalaşan kapital alətlərinin açıqlamalarının yenilənməsi.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

- 1 saylı MHBS: İlk dəfə tətbiq edənlər üçün hedcinq uçotuna dair aydınlaşdırmalar;
- 7 saylı MHBS: Tanınmanın dayandırılması ilə bağlı mənfəət və ya zərərin tanınması üzrə təlimat;
- 7 saylı MHBS: Ədalətli dəyər və əməliyyat qiyməti arasında təxirə salınmış fərqlər üçün təkmilləşdirilmiş açıqlamalar;
- 7 saylı MHBS: Tətbiqdə təkmilləşdirmələr və kredit riski ilə bağlı açıqlamalar;
- 9 saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahatlar;
- 9 saylı MHBS: Əməliyyat qiymətinin müəyyən edilməsi üzrə əlavə təlimat;
- 10 saylı MHBS: "De-fakto agent"in müəyyən edilməsinə dair aydınlaşdırmalar;
- 7 saylı MUBS: Xərc metodu ilə bağlı təkmilləşdirmələr.

**5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)**

**18 saylı MHBS Maliyyə hesabatlarının təqdimatı və açıqlamaları (09 aprel 2024-cü il tarixində dərc olunub və 01 yanvar 2027-ci il tarixindən başlayan və ya sonrakı illik dövrlər üçün qüvvədədir)**

Aprel 2024-cü ildə, MUBSŞ 18 saylı MHBS-nı, əsas diqqətin mənfəət və ya zərər Hesabatındakı yeniliklərə çəkməklə maliyyə hesabatların təqdimatı və açıqlamaları haqqında yeni standartı dərc edib. 18 saylı MHBS-da təqdim olunan əsas yeniliklərə aşağıdakılara aiddir:

- Mənfəət və ya zərər hesabatının quruluşuna;
- Cəmiyyətin maliyyə hesabatlarından kənarda dərc olunan müəyyən Mənfəət və ya Zərər fəaliyyət ölçüləri üçün tələb olunan açıqlamalara (rəhbərlik tərəfindən müəyyən olunan ölçülər);
- Ümumən ilkin maliyyə hesabatlarına və qeydlərinə tətbiq edilən təkmilləşdirilimiş birləşmə və bölünmə prinsiplərinə;

18 saylı MHBS, 1 saylı MUBS-nin bir çox prinsipləri limitli dəyişikliklərlə saxlayaraq, əvəz edəcək. 18 saylı MHBS maliyyə hesabatlarında maddələrin tanınmasına və ölçülməsinə təsir göstərməyəcək, lakin Cəmiyyətin "əməliyyat mənfəəti və ya zərəri" kimi təqdim etdiyi göstəriciləri dəyişə bilər. 18 saylı MHBS, 01 yanvar 2027-ci il və ya ondan sonra başlayan hesabat dövrləri üçün tətbiq olunacaq və müqayisəli məlumatlara da aiddir.

19 saylı MHBS İctimai hesabatlılığı olmayan törəmə müəssisələrin açıqlanmaları (09 may 2024-cü ildə dərc olunub və 01 yanvar 2027-ci il və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir)
Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) törəmə müəssisələr üçün yeni MHBS Mühasibat Uçotu Standartını dərc etmişdir. 19 saylı MHBS, uyğun törəmə müəssisələrə azaldılmış açıqlanmalarla MHBS Mühasibat Uçotu Standartlarını istifadə etməyə icazə verir. 19 saylı MHBS-nin tətbiqi törəmə müəssisələrin maliyyə hesabatlarının hazırlanması ilə bağlı xərcləri azaldacaq, eyni zamanda onların maliyyə hesabatlarının istifadəçiləri üçün məlumatların faydalılığını qoruyub saxlayacaqdır.

Öz maliyyə hesabatları üçün MHBS Mühasibat Uçotu Standartlarını istifadə edən törəmə müəssisələr, onların istifadəçilərinin məlumat ehtiyacları ilə müqayisədə qeyri-mütənasib ola bilən açıqlanmalar təqdim edirlər. 19 saylı MHBS bu problemləri aşağıdakı şəkildə həll edəcəkdir:

- törəmə müəssisələrə həm ana şirkətin, həm də özlərinin maliyyə hesabatlarının istifadəçilərinin ehtiyaclarını təmin etmək imkanı yaratmaq üçün vahid mühasibat uçotunun tətbiqi;
- məlumatların açıqlanması tələblərinin azaldılması – MHBS 19 maliyyə hesabatlarının istifadəçilərinin ehtiyaclarına daha uyğun olan məlumatları açıqlamağa imkan verəcək.

2025-ci ilin avqustunda MUBSŞ 21 saylı MUBS – Xarici Valyuta Məzənnələrində Dəyişikliklərin Təsirləri (Hiperinflyasiya Təqdimat Valyutası) standartına Müəssisə hiperinflyasiya şəraitində təqdimat valyutasını necə müəyyənləşdirəcəyi və valyutanın dəyişmə qabiliyyəti olmadıqda xarici valyuta əməliyyatlarını necə qiymətləndirəcəyini izah etmək məqsədilə düzəlişlər etd. Müəssisə ölçmə tarixində başqa valyutaya dəyişdirilə bilməyən xarici valyutada əməliyyat və ya əməliyyat apardıqda təsirə məruz qalır. Düzəlişlər 01 yanvar 2027-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir, erkən tətbiqə icazə verilir.

Yuxarıda əksinə təsvir edilmədikcə, yeni standartlar və izahlar Rəhbərlik tərəfindən nəzərdən keçirilir və onların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsinin gözlənilmədiyinin qənaətinə gəlinir.

Bu yeni standartların və izahların tələbləri bu maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilməmişdir. Rəhbərlik bu yeni standartların və izahların mümkün təsirini qiymətləndirmiş və onların tətbiqinin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməyini gözləmir. Bu standartlar müvafiq qüvvəyə minmə tarixlərindən etibarən tələb olunduğu kimi tətbiq ediləcəkdir.

## 6. Əlaqəli tərəflərlə əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni qrupun nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2025-ci il | | 31 dekabr 2024-cü il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərdə olan qalıqlar** | **Maliyyə hesabatlarında bəndlər üzrə məbləğlər** | **Əlaqəli tərəflərdə olan qalıqlar** | **Maliyyə hesabatlarında bəndlər üzrə məbləğlər** |
| Buraxılmış borc qiymətli kağızlar | 793,000 | 4,496,140 | 1,170,000 | 4,112,751 |
| Səhmdarlara olan borc öhdəliyi | 668,000 | 668,000 | 641,962 | 641,962 |

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərində bitən illər üzrə əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

| | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərdə olan məbləğ** | **Maliyyə hesabatlarında bəndlər üzrə məbləğlər** | **Əlaqəli tərəflərdə olan məbləğ** | **Maliyyə hesabatlarında bəndlər üzrə məbləğlər** |
| Buraxılmış borc qiymətli kağızlar və səhmdarlara olan borc öhdəlikləri üzrə faiz xərcləri | 92,710 | 919,335 | 65,285 | 873,721 |
| İşçilər üzrə digər xərclər | 80,047 | 80,047 | 58,679 | 58,679 |
| Əmək haqqı və mükafatlar | 221,217 | 691,065 | 181,463 | 482,305 |

## 7. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| Nağd pul | 81,812 | 7,571 |
| Banklarda olan vəsaitlər | 933,885 | 317,476 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **1,015,697** | **325,047** |

GKZ qiymətləndirilməsi üzrə pul vəsaitləri və onların ekvivalentlərinin qalıqları Mərhələ 1-ə daxil edilir.

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə banklarda olan vəsaitlərin reytinq təhlili aşağıdakı cədvəldə göstərilir:

| | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|
| B+ | - | 209,153 |
| B | 812,153 | - |
| Qiymətləndirilməmiş | 121,732 | 108,323 |
| **Cəmi banklarda olan vəsaitlər** | **933,885** | **317,476** |

## 8. Satış üçün saxlanılan aktivlər

Satış üçün saxlanılan aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **648,479** | **431,819** |
| Əlavələr | 973,845 | 424,291 |
| Satış | (742,192) | (207,631) |
| **İlin sonuna qalıq** | **880,132** | **648,479** |

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il ərzində müvafiq olaraq balansa alınmış 973,845 AZN və 424,291 AZN məbləğində olan daşınmaz əmlakdan ibarət girovlar satış üçün saxlanılan aktivlərə daxil edilmişdir. 2025-ci il ərzində 742,191 AZN (2024-cü il ərzində 207,631AZN) məbləğində satış olmuşdur.

Rəhbərliyin mülahizələrinə əsasən satış üçün saxlanılan aktivlərin bazar dəyəri onların qalıq dəyərinə bərabərdir. Rəhbərlik balansa alınmış girovları bir il ərzində satmağı planlaşdırır.

## 9. Müştərilərə verilmiş kreditlər və avanslar

Müştərilərə verilmiş kreditlər və avanslar aşağıdakılardır:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| İstehlak kreditləri | 14,003,032 | 11,979,067 |
| Faktorinq kreditləri | 59,000 | 98,810 |
| Biznes kreditləri | 12,830 | 8,780 |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **14,074,862** | **12,086,657** |
| Çıxılsın: gözlənilən kredit zərəri üzrə ehtiyat | (1,836,700) | (1,421,302) |
| **Xalis müştərilərə verilmiş kreditlər və avanslar** | **12,238,162** | **10,665,355** |

Cəmiyyət kreditləri aşağıdakı limitlər üzrə təsnifləşdirir:

-25,000 AZN-dək – kiçik həcmli kreditlər;
-25,000 AZN-dən yuxarı – böyük həcmli kreditlər.

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixinə müştərilərə verilmiş kredit qalıqlarının ölçüləri üzrə təhlili göstərilmişdir:

| | 31 dekabr 2025-ci il | | 31 dekabr 2024-cü il | |
|---|---|---|---|---|
| | Kredit məbləği | Gözlənilən kredit zərəri üzrə ehtiyat | Kredit məbləği | Gözlənilən kredit zərəri üzrə ehtiyat |
| Kiçik həcmli | 4,788,632 | (478,873) | 5,228,060 | (426,955) |
| Böyük həcmli | 9,286,230 | (1,357,827) | 6,858,597 | (994,347) |
| **Cəmi** | **14,074,862** | **(1,836,700)** | **12,086,657** | **(1,421,302)** |

## 9. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti haqqında məlumat təqdim olunmuşdur.

| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| Cari | 6,435,420 | - | - | 6,435,420 |
| 30 gündən az | 1,252,023 | - | - | 1,252,023 |
| 30 gündən 90 günədək | - | 1,128,935 | - | 1,128,935 |
| 90 gündən 180 günədək | - | - | 572,174 | 572,174 |
| 180 gündən 360 günədək | - | - | 1,066,431 | 1,066,431 |
| 360 gündən artıq | - | - | 3,619,879 | 3,619,879 |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **7,687,443** | **1,128,935** | **5,258,484** | **14,074,862** |
| Çıxılsın: gözlənilən kredit zərəri üzrə ehtiyat | (187,677) | (102,440) | (1,546,583) | (1,836,700) |
| **Xalis müştərilərə verilmiş kreditlər və avanslar** | **7,499,766** | **1,026,495** | **3,711,901** | **12,238,162** |

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti haqqında məlumat təqdim olunmuşdur.

| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| Cari | 6,579,522 | - | - | 6,579,522 |
| 30 gündən 90 günədək | - | 707,831 | - | 707,831 |
| 90 gündən 180 günədək | - | - | 928,364 | 928,364 |
| 180 gündən 360 günədək | - | - | 966,918 | 966,918 |
| 360 gündən artıq | - | - | 2,904,022 | 2,904,022 |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **6,579,522** | **707,831** | **4,799,304** | **12,086,657** |
| Çıxılsın: gözlənilən kredit zərəri üzrə ehtiyat | (65,484) | (54,370) | (1,301,448) | (1,421,302) |
| **Xalis müştərilərə verilmiş kreditlər və avanslar** | **6,514,038** | **653,461** | **3,497,856** | **10,665,355** |

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti haqqında məlumat təqdim olunmuşdur.

| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **01 yanvar 2025-ci il** | **6,579,522** | **707,831** | **4,799,304** | **12,086,657** |
| 1-ci Mərhələyə keçid | 22,952 | (18,316) | (4,636) | - |
| 2-ci Mərhələyə keçid | (345,056) | 354,152 | (9,096) | - |
| 3-cü Mərhələyə keçid | (998,502) | (221,412) | 1,219,914 | - |
| Əldə edilmiş və ya satın alınmış yeni maliyyə aktivləri | 6,302,197 | 741,040 | 582,199 | 7,625,436 |
| Mövcud kreditlərin azalması | (2,928,515) | (426,338) | (4,799,305) | (8,154,158) |
| Digər hərəkətlər | (945,155) | (8,022) | 3,470,103 | 2,516,926 |
| **31 dekabr 2025-ci il** | **7,687,443** | **1,128,935** | **5,258,484** | **14,074,862** |

## 9. Müştərilərə verilmiş kreditlər və avanslar (davamı)

Aşağıdakı cədvəldə 2024-cü il üçün verilmiş kreditlərin ilin əvvəlinə və sonuna olan qalıqları arasında olan uzlaşmalar göstərilmişdir:

| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il** | **6,719,201** | **13,906** | **3,463,328** | **10,196,435** |
| 1-ci Mərhələyə keçid | 57,578 | - | (57,578) | - |
| 2-ci Mərhələyə keçid | (132,532) | 132,532 | - | - |
| 3-cü Mərhələyə keçid | (1,452,495) | (1,711) | 1,454,206 | - |
| Əldə edilmiş və ya satın alınmış yeni maliyyə aktivləri | 5,022,072 | 575,299 | 601,693 | 6,199,064 |
| Mövcud kreditlərin azalması | (2,768,925) | (12,392) | (765,680) | (3,546,997) |
| Digər hərəkətlər | (865,377) | 197 | 103,335 | (761,845) |
| **31 dekabr 2024-cü il** | **6,579,522** | **707,831** | **4,799,304** | **12,086,657** |

Aşağıdakı cədvəldə 2025-ci il üçün verilmiş kreditlərə hesablanmış gözlənilən kredit zərəri üzrə ehtiyatın ilin əvvəlinə və sonuna olan qalıqları arasında olan uzlaşmalar göstərilmişdir:

| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **01 yanvar 2025-ci il** | **(65,484)** | **(54,370)** | **(1,301,448)** | **(1,421,302)** |
| 1-ci Mərhələyə keçid | - | - | - | - |
| 2-ci Mərhələyə keçid | 14,768 | (14,768) | - | - |
| 3-cü Mərhələyə keçid | 118,702 | 15,986 | (134,688) | - |
| Əldə edilmiş və ya satın alınmış yeni maliyyə aktivləri | (171,150) | (87,672) | (49,910) | (308,732) |
| Mövcud kreditlərin azalması | 65,095 | 40,929 | 341,434 | 447,458 |
| Digər hərəkətlər | (149,608) | (2,545) | (401,971) | (554,124) |
| **31 dekabr 2025-ci il** | **(187,677)** | **(102,440)** | **(1,546,583)** | **(1,836,700)** |

Aşağıdakı cədvəldə 2024-cü il üçün verilmiş kreditlərə hesablanmış gözlənilən kredit zərəri üzrə ehtiyatın ilin əvvəlinə və sonuna olan qalıqları arasında olan uzlaşmalar göstərilmişdir:

| | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il** | **(18,827)** | **(628)** | **(1,178,496)** | **(1,197,951)** |
| 1-ci Mərhələyə keçid | (1,669) | - | 1,669 | - |
| 2-ci Mərhələyə keçid | 562 | (562) | - | - |
| 3-cü Mərhələyə keçid | 152,573 | 780 | (153,353) | - |
| Əldə edilmiş və ya satın alınmış yeni maliyyə aktivləri | (54,637) | (53,808) | (42,137) | (150,582) |
| Mövcud kreditlərin azalması | 8,336 | - | 205,403 | 213,739 |
| Digər hərəkətlər | (151,822) | (152) | (134,534) | (286,508) |
| **31 dekabr 2024-cü il** | **(65,484)** | **(54,370)** | **(1,301,448)** | **(1,421,302)** |

## 10. Əmlak və avadanlıqlar və qeyri-maddi aktivlər

Əmlak və avadanlıqların və qeyri-maddi aktivlərin hərəkəti aşağıdakı kimi olmuşdur:

| | Mebel və ofis ləvazimatları | Ofis və kompüter avadanlığı | Nəqliyyat vasitələri | Cəmi əsas vəsaitlər | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il** | **27,778** | **13,196** | **170,400** | **211,374** | **40,000** | **251,374** |
| Əlavələr | - | 5,454 | 281,243 | 286,697 | - | 286,697 |
| **31 dekabr 2024-cü il** | **27,778** | **18,650** | **451,643** | **498,071** | **40,000** | **538,071** |
| Əlavələr | 2,603 | 26,675 | 46,500 | 75,778 | 6,135 | 81,913 |
| **31 dekabr 2025-ci il** | **30,381** | **45,325** | **498,143** | **573,849** | **46,135** | **619,984** |
| **Yığılmış köhnəlmə və amortizasiya** | | | | | | |
| **01 yanvar 2024-cü il** | **(13,474)** | **(5,017)** | **(108,249)** | **(126,740)** | **(16,727)** | **(143,467)** |
| İl üzrə köhnəlmə və amortizasiya xərci | (1,893) | (1,993) | (17,099) | (20,985) | (1,942) | (22,927) |
| **31 dekabr 2024-cü il** | **(15,367)** | **(7,010)** | **(125,348)** | **(147,725)** | **(18,669)** | **(166,394)** |
| İl üzrə köhnəlmə və amortizasiya xərci | (2,904) | (6,983) | (83,861) | (93,748) | (2,779) | (96,527) |
| **31 dekabr 2025-ci il** | **(18,271)** | **(13,993)** | **(209,209)** | **(241,473)** | **(21,448)** | **(262,921)** |
| **Xalis balans dəyəri:** | | | | | | |
| **01 yanvar 2024-cü il tarixinə** | **14,304** | **8,179** | **62,151** | **84,634** | **23,273** | **107,907** |
| **31 dekabr 2024-cü il tarixinə** | **12,411** | **11,640** | **326,295** | **350,346** | **21,331** | **371,677** |
| **31 dekabr 2025-ci il tarixinə** | **12,110** | **31,332** | **288,934** | **332,376** | **24,687** | **357,063** |

Cəmiyyət "Kapital Bank" ASC ilə 23 dekabr 2024-cü il tarixli 19440/104 nömrəli kredit müqaviləsinə əsasən 260,000 AZN məbləğində illik 14.5% dərəcəsi ilə 36 ay müddətinə kredit müqaviləsi imzalamışdır. Cəmiyyətin əsas vəsaitlərinə daxil olan il ərzində alınmış ilkin dəyəri 281,243 AZN olan Mercedes Benz S500 4matic (istehsal ili 2023-cü il) nəqəliyyat vasitəsi kreditin təminatı qismində çıxış edir. Cəmiyyətin 31 dekabr 2025-cü il tarixinə əsas məbləğ üzrə qalıq borcu 130,361 AZN təşkil edir.

## 11. Digər aktivlər

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Balansa alınmış girovlar üçün avans ödənişləri | 293,322 | 95,016 |
| Lisenziyası ləğv olunmuş banklarda cari hesablar | 1,857 | 1,857 |
| Çıxılsın: gözlənilən kredit zərəri üzrə ehtiyat | (1,857) | (1,857) |
| Digər aktivlər | 3,021 | 635 |
| **Cəmi digər aktivlər** | **296,343** | **95,651** |

## 12. Mənfəət vergisi

Cəmiyyət vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarından fərqlənə bilər.

Cəmiyyət bəzi xərclərin vergi mənfəətindən azaldılmamasına və bəzi gəlirlərin vergidən azad olunmasına görə bəzi daimi vergi fərqləri yaradır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasındakı fərqlərdən yaranmışdır.

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə vergi bazasını artıran və azaldan müvəqqəti fərqlər aşağıdakılardır:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,857 | 1,857 |
| Əsas vəsaitlər | 44,883 | 45,239 |
| Qeyri-maddi aktivlər | 149 | 149 |
| **Ümumi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **46,889** | **47,245** |
| Digər öhdəliklər | (7,670) | (7,670) |
| Müştərilərə verilmiş kreditlər və avanslar | (767,767) | (417,409) |
| **Ümumi vergi bazasını artıran müvəqqəti fərqlər** | **(775,437)** | **(425,079)** |
| **Xalis vergi tutulan müvəqqəti fərqlər** | **(728,548)** | **(377,834)** |
| **20% yerli vergi dərəcəsi ilə hesablanan təxirə salınmış vergi öhdəliyi** | **(145,710)** | **(75,567)** |

## 12. Mənfəət vergisi (davamı)

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| **Təxirə salınmış vergi öhdəliyi** | | |
| **İlin əvvəlinə vergi öhdəliyi** | **(75,567)** | **(52,012)** |
| Dövr ərzində dəyişikliklər | (71,777) | (23,555) |
| **İlin sonuna vergi öhdəliyi** | **(147,344)** | **(75,567)** |

Maliyyə mənfəəti ilə mənfəət vergisi xərci arasında əlaqə 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərində bitən il üzrə aşağıdakı kimi izah edilir:

| | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|
| Mənfəət vergisindən əvvəlki mənfəət | 2,652,331 | 2,339,404 |
| Qanunvericiliklə müəyyən edilmiş 20% vergi dərəcəsi ilə | (530,466) | (467,881) |
| Daimi fərqlərin vergi təsiri | (103) | (14,109) |
| **Mənfəət vergisi xərci** | **(530,569)** | **(481,990)** |

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| | 31 dekabr 2025-cü il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (458,792) | (458,435) |
| Təxirə salınmış vergi xərci | (71,777) | (23,555) |
| **Mənfəət vergisi xərci** | **(530,569)** | **(481,990)** |

## 13. Müddətli borc öhdəlikləri

Rezident banklar və digər Cəmiyyətlərdən borc götürülmüş vəsaitlər aşağıdakılardır:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| "Kapital Bank" ASC | 927,301 | 918,062 |
| "Access Bank" ASC | 478,537 | 737,029 |
| "Paşa Bank" ASC | 284,978 | - |
| Hesablanmış ödəniləcək faizlər | 11,663 | 9,149 |
| **Cəmi müddətli borc öhdəlikləri** | **1,702,479** | **1,664,240** |

## 13. Müddətli borc öhdəlikləri (davamı)

Cəmiyyət "Access Bank" ASC ilə 26 may 2025-ci il tarixli N-N-999L000003185367 nömrəli kredit müqaviləsinə əsasən 425,000 AZN məbləğində illik 15 % dərəcəsi ilə 36 ay müddətinə kredit müqaviləsi imzalamışdır. Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə əsas məbləğ üzrə qalıq borcu 367,662 AZN təşkil edir.

Cəmiyyət "Access Bank" ASC ilə 15 iyul 2025-ci il tarixli N-N-999L000003185367 nömrəli kredit müqaviləsinə əsasən 125,000 AZN məbləğində illik 15 % dərəcəsi ilə 36 ay müddətinə kredit müqaviləsi imzalamışdır. Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə əsas məbləğ üzrə qalıq borcu 110,875 AZN təşkil edir.

Cəmiyyət "Kapital Bank" ASC ilə 15 sentyabr 2025-ci il tarixli COCS6533506C104 nömrəli kredit müqaviləsinə əsasən 200,000 AZN məbləğində illik 16 % dərəcəsi ilə 36 ay müddətinə kredit müqaviləsi imzalamışdır. Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə əsas məbləğ üzrə qalıq borcu 152,956 AZN təşkil edir.

Cəmiyyət "Kapital Bank" ASC ilə 18 iyun 2025-ci il tarixli N-20667/104 nömrəli kredit müqaviləsinə əsasən 400,000 AZN məbləğində illik 16 % dərəcəsi ilə 36 ay müddətinə kredit müqaviləsi imzalamışdır. Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə əsas məbləğ üzrə qalıq borcu 345,858 AZN təşkil edir.

Cəmiyyət "Kapital Bank" ASC ilə 22 may 2024-cü il tarixli N-16157/104 nömrəli kredit müqaviləsinə əsasən 600,000 AZN məbləğində illik 13 % dərəcəsi ilə 30 ay müddətinə kredit müqaviləsi imzalamışdır. Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə əsas məbləğ üzrə qalıq borcu 242,960 AZN təşkil edir.

Cəmiyyət "Kapital Bank" ASC ilə 23 dekabr 2024-cü il tarixli 19440/104 nömrəli kredit müqaviləsinə əsasən 260,000 AZN məbləğində illik 14,5 % dərəcəsi ilə 30 ay müddətinə kredit müqaviləsi imzalamışdır. Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə əsas məbləğ üzrə qalıq borcu 185,527 AZN təşkil edir.

Cəmiyyət "Paşa Bank" ASC ilə 06 dekabr 2024-cü il tarixli K4838/06 nömrəli kredit müqaviləsinə əsasən 400,000 AZN məbləğində illik 14 % dərəcəsi ilə 36 ay müddətinə kredit müqaviləsi imzalamışdır. Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə əsas məbləğ üzrə qalıq borcu 284,978 AZN təşkil edir.

Borc öhdəliklərinin ilin əvvəlinə və ilin sonuna olan məbləğlərinin maliyyələşdirmə fəaliyyəti üzrə yaranan müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıda göstərilmişdir:

| | |
|---|---:|
| **01 yanvar 2025-ci il** | **1,664,240** |
| Yeni alınan kreditlər | 1,150,000 |
| Ödənilmiş əsas məbləğ | (1,114,244) |
| Ödənilmiş faiz məbləği | (234,323) |
| Faiz xərci | 236,806 |
| **31 dekabr 2025-ci il** | **1,702,479** |

## 13. Müddətli borc öhdəlikləri (davamı)

| | |
|---|---|
| **01 yanvar 2024-cü il** | **1,345,139** |
| Yeni alınan kreditlər | 1,260,000 |
| Ödənilmiş əsas məbləğ | (939,241) |
| Ödənilmiş faiz məbləği | (162,753) |
| Faiz xərci | 161,095 |
| **31 dekabr 2024-cü il** | **1,664,240** |

## 14. Səhmdarlara olan borc öhdəliyi

Cəmiyyət 2025-ci il ərzində səhmdar ilə illik 16% faiz dərəcəsi ilə ümumi məbləği 415,000 AZN olan müqaviləsi imzalamışdır. 31 dekabr 2025-ci il tarixinə müqavilələr üzrə 384,500 AZN ödəniş edilmişdir. Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə qalıq borcu 668,000 AZN təşkil edir.

Cəmiyyət 2024-cü il ərzində səhmdar ilə illik 16% faiz dərəcəsi ilə ümumi məbləği 603,000 AZN olan və ümumi məbləği 901,900 AZN olan faizsiz borc müqaviləsi imzalamışdır. 31 dekabr 2024-cü il tarixinə müqavilələr üzrə 967,400 AZN ödəniş edilmişdir. Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə qalıq borcu 641,962 AZN təşkil edir.

## 15. Buraxılmış borc qiymətli kağızları

Buraxılmış borc qiymətli kağızlar aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Qiymətli Kağızlar üzrə Dövlət Reyestrində qeydiyyata alınmış istiqrazlar | 4,470,000 | 4,070,000 |
| Hesablanmış ödəniləcək faizlər | 26,140 | 42,751 |
| **Cəmi buraxılmış borc qiymətli kağızları** | **4,496,140** | **4,112,751** |

Buraxılmış borc qiymətli kağızları Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində qeydiyyata alınmışdır.

31 dekabr 2025-ci il tarixinə buraxılmış borc qiymətli kağızlarına ümumi qalıq dəyəri 4,470,000 AZN olan və hər birinin nominal dəyəri 1,000 AZN və1,000 istiqrazda illik sabit kupon dərəcəsi 15%-ə, 1,500 istiqrazda illik sabit kupon dərəcəsi 14%-ə və 1,970 istiqrazda isə illik sabit kupon dərəcəsi 16%-ə bərabər olan 4,470 istiqraz daxildir.

31 dekabr 2024-cü il tarixinə buraxılmış borc qiymətli kağızlarına ümumi qalıq dəyəri 4,070,000 AZN olan və hər birinin nominal dəyəri 1,000 AZN və 1,500 istiqrazda illik sabit kupon dərəcəsi 14%-ə və 2,570 istiqrazda isə illik sabit kupon dərəcəsi 16%-ə bərabər olan 4,070 istiqraz daxildir.

İstiqrazlar üzrə faizlər hər ay olmaqla ödənilir. İstiqraz sahiblərinin ödəmə müddəti başa çatdıqda əsas borcun qaytarılmasını tələb etmək hüququ vardır. İstiqrazların təkrar bazarlarda satışı və alışı ilə bağlı heç bir məhdudiyyət yoxdur.

## 15. Buraxılmış borc qiymətli kağızları (davamı)

Buraxılmış borc qiymətli kağızlarının ilin əvvəlinə və ilin sonuna olan məbləğlərinin maliyyələşdirmə fəaliyyəti üzrə yaranan müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıda göstərilmişdir:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| **İlin əvvəlinə qalıq** | **4,112,751** | **4,576,602** |
| Daxilolmalar | 1,000,000 | 695,000 |
| Ödənişlər | (600,000) | (1,177,000) |
| Ödənilmiş faiz xərcləri | (614,175) | (690,015) |
| **Pul vəsaitlərinin hərəkətinin maliyyələşdirilməsi üzrə cəmi dəyişikliklər** | **3,898,576** | **3,404,587** |
| Faiz xərci | 597,564 | 708,164 |
| **İlin sonuna qalıq** | **4,496,140** | **4,112,751** |

## 16. Digər öhdəliklər

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Satış üçün saxlanılan aktivlərlə bağlı öhdəliklər | 113,704 | 23,265 |
| İşçilərə olan öhdəliklər | 41,906 | 16,902 |
| Digər öhdəliklər | 56,718 | 28,809 |
| **Cəmi digər öhdəliklər** | **212,328** | **68,967** |

## 17. Nizamnamə kapitalı

Nizamnamə kapitalı Cəmiyyətin iştirakçıları tərəfindən qoyulmuş töhfələri əks etdirir. Cəmiyyətin iştirakçıları öz qoyduqları məbləğlərə mütənasib olaraq Cəmiyyət iştirakçılarının illik və ümumi yığıncaqlarında səs vermək hüququna malikdirlər.

31 dekabr 2025-ci il tarixinə nizamnamə kapitalı 5,000,000 AZN məbləğində hər birinin nominal dəyəri 100 AZN olmaqla toplamda 50,000 paydan ibarət olmuşdur. (31 dekabr 2024-cü il tarixinə nizamnamə kapitalı 2,000,000 AZN məbləğində hər birinin nominal dəyəri 100 AZN olmaqla toplamda 20,000 paydan ibarət olmuşdur).

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə Əliyev Əbülfəz Əlihəsən oğlu 100 % paya sahib olmuşdur.

## 18. Xalis faiz gəliri

Xalis faiz gəlirləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|
| **Effektiv faiz üsulu ilə hesablanmış faiz gəlirləri** | | |
| Müştərilərə verilmiş kreditlər və avanslar üzrə | 5,057,937 | 4,402,025 |
| **Cəmi effektiv faiz üsulu ilə hesablanmış faiz gəlirləri** | **5,057,937** | **4,402,025** |
| **Effektiv faiz üsulu ilə hesablanmış faiz xərcləri** | | |
| Müddətli borc öhdəlikləri üzrə | (236,806) | (161,095) |
| Buraxılmış borc qiymətli kağızlar üzrə | (597,564) | (708,164) |
| Səhmdarlara olan borc öhdəlikləri üzrə | (84,965) | (4,462) |
| **Cəmi effektiv faiz üsulu ilə hesablanmış faiz xərcləri** | **(919,335)** | **(873,721)** |
| **Xalis faiz gəlirləri** | **4,138,602** | **3,528,304** |

## 19. Digər gəlirlər

31 dekabr 2025-ci il tarixində bitən il üzrə digər gəlirlər 562,104 AZN məbləğində müqavilə üzrə cərimələrin ödənişindən və 16,590 AZN məbləğində satış üçün nəzərdə tutulan aktivlər üzrə gəlirlərdən ibarət olmuşdur (2024: 411,009 AZN məbləğində müqavilə üzrə cərimələrin ödənişindən və 21,472 AZN məbləğində satış üçün nəzərdə tutulan aktivlər üzrə gəlirlərdən ibarət olmuşdur).

## 20. İnzibati və digər əməliyyat xərcləri

İnzibati xərclər aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2025-ci il tarixində bitən il üzrə | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | (585,703) | (407,843) |
| Peşəkar xidmətlər | (372,353) | (412,791) |
| Sosial müdafiə fonduna ödənişlər | (105,362) | (74,462) |
| Köhnəlmə və amortizasiya xərcləri | (96,527) | (22,927) |
| Hüquqi xidmət xərcləri | (87,932) | (110,186) |
| İşçilər üzrə digər xərclər | (80,047) | (58,679) |
| Bank xərcləri | (65,685) | (60,548) |
| Qısamüddətli icarə xərcləri | (43,960) | (47,880) |
| Üzvülük xərcləri | (34,542) | (18,274) |
| Ofis ləvazimatı xərcləri | (18,031) | (40,817) |
| Yanacaq xərcləri | (12,647) | (19,258) |
| Təmir xərcləri | (10,075) | (10,111) |
| Rabitə xərcləri | (5,111) | (5,672) |
| Mənfəət vergisindən başqa digər vergilər üzrə xərclər | - | (14,110) |
| Cərimə xərcləri | - | (2,000) |
| Digər xərclər | (128,570) | (92,472) |
| **Cəmi inzibati və digər əməliyyat xərcləri** | **(1,646,545)** | **(1,398,030)** |

## 21. Maliyyə risklərinin idarə edilməsi

Cəmiyyət daxilində risklərin idarə edilməsi maliyyə (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

### Kredit riski

Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəf öz öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Cəmiyyət kredit riskinə məruz qalır. Kredit riski Cəmiyyətin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.

Cəmiyyətin İdarə Heyəti tərəfindən təsdiqlənmiş Kredit Siyasətinə uyğun olaraq mümkün kredit risklərinin diversifikasiyasını və azaldılmasını təmin etmək üçün kredit portfeli üzrə bəzi limitlər müəyyən edilmişdir.

Bu limitlər aşağıda göstərilir:

- Təmir-tikinti və istehlak kreditləri portfeli üzrə limitlər;
- İqtisadi sektorlar üzrə limitlər;
- Regionlar üzrə limitlər;
- Konsentrasiya limitləri; və

Təminatın növü üzrə limitlər.

Risklərin idarə edilməsi funksiyası Cəmiyyətdə Komplayens şöbəsi tərəfindən həyata keçirilir. Bu şöbə risklərin tənzimlənməsi, maliyyə monitorinqi və normativ tələblərə riayət olunmasına nəzarət funksiyalarını icra edir.

Komplayens şöbəsi tərəfindən risk limitləri müntəzəm olaraq müəyyən edilir. Bazar şəraitində əhəmiyyətli dəyişikliklər baş verdiyi halda, həmin limitlərə yenidən baxıla bilər. Limitlərin dəyişdirilməsi ilə bağlı təkliflər müvafiq olaraq Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiqlənir.

Komplayens şöbəsi müntəzəm olaraq müəyyən edilmiş limitlərə riayət olunmasına nəzarət edir. Xüsusilə, bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupuna verilmiş kreditlərin maksimum məbləği, eləcə də əlaqəli tərəflərlə əməliyyatlar üzrə limitlər yeni kreditlərin verilməsindən əvvəl yoxlanılır.

Bundan əlavə, Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş və bütün maliyyə təşkilatları üçün məcburi olan limitlərə riayət olunmasına da nəzarət edilir.

Kredit risklərinin idarə edilməsi Cəmiyyətin əsas əməliyyat fəaliyyətinin ayrılmaz hissəsidir və kreditin verilməsindən onun tam geri qaytarılmasınadək olan bütün mərhələləri əhatə edir. Bu proseslər Cəmiyyətin daxili siyasət və prosedurlarına, habelə ARMB tərəfindən müəyyən edilmiş normativ tələblərə uyğun şəkildə həyata keçirilir.

ARMB-nin müəyyən etdiyi Risklərin İdarə Edilməsi Standartları və Prosedurlarına əsasən risklərin idarə edilməsi prosesinə onların müəyyən edilməsi və qiymətləndirilməsi yolu ilə risklərə nəzarət edilməsi və azaldılması, bu cür risklərlə bağlı hesabatların hazırlanması (məsələn, Rəhbərlik, komitələr və risklərin idarə edilməsi üzrə mütəxəssislər tərəfindən) və Rəhbərlik tərəfindən risk limitlərinin qəbul edilməsi aid edilir.

## 21. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Kredit riski (davamı)

Risklərin idarə edilməsi funksiyasının əsas məqsədləri aşağıda göstərilir. ARMB-nin müəyyən etdiyi Risklərin İdarə Edilməsi Standartlarına görə risklərin idarə edilməsi infrastrukturu və Cəmiyyətların üzləşdiyi risklər kənar mütəxəssis və ya auditor tərəfindən ən azı ildə bir dəfə qiymətləndirilməlidir. Ümumiyyətlə, ARMB-nin müəyyən etdiyi standartlarda konkret kəmiyyət limitləri və ya standartlar nəzərdə tutulmasa da, Cəmiyyət tərəfindən risklərin qiymətləndirilməsi üzrə müvafiq metodologiyanın qəbul edilməsi tələb olunur.

Cəmiyyətdə risklərin idarə edilməsi funksiyası Cəmiyyətin Müşahidə Şurası və bütün əməkdaşlarının vəzifə və səlahiyyətlərinin ümumi strukturuna daxildir.

Bu funksiya aşağıdakıların müəyyən edilməsini tələb edir: (i) risklərin idarə edilməsi funksiyası çərçivəsində nəzarət edilən risklərin həcmi və ya səviyyəsi, (ii) Cəmiyyətin daxili strukturunda risklərin idarə edilməsi funksiyasının yerinə yetirilməsinə görə məsul olan işçinin vəzifəsi və (iii) risklərlə bağlı məlumatların qiymətləndirilməsi metodologiyası, müvafiq hesabatların hazırlanması və bu cür risklərə nəzarət edilməsi (risk limitlərinin müəyyən edilməsi) və qərarların qəbul edilməsi prosesində bu cür məlumatların nəzərə alınması.

ARMB-nin müəyyən etdiyi Risklərin İdarə Edilməsi Standartlarında kredit risklərinin xarakteri, eləcə də onların müəyyən edilməsi və qiymətləndirilməsi metodologiyası əks etdirilir. Bundan əlavə, Standartlarda Cəmiyyətin Müşahidə Şurası tərəfindən aşağıdakı risk limitlərinin qəbul edilməsi nəzərdə tutulur: kapital riski, bazar riski, kredit riski və konsentrasiya riski üzrə limitlər.

Cəmiyyət məruz qaldığı kredit riskinə bir borcalan, eləcə də coğrafi və ya fəaliyyət seqmentləri üzrə limitlər müəyyən etməklə nəzarət edir. Bu cür risklərə Komplayens şöbəsi kimi Cəmiyyətin müvafiq bölmələri tərəfindən gündəlik nəzarət olunur. Bu cür risklərə həmçinin İdarəetmə Komitəsi tərəfindən hər ay nəzarət olunur və vaxtı keçmiş kreditlərin sayının azaldılması tələb olunduqda, prosedurların təkmilləşdirilməsi məqsədilə il ərzində mütəmadi olaraq nəzərdən keçirilir. Kredit riski səviyyəsinin məhsul, borcalan və sənaye sahələri üzrə limitləri müntəzəm olaraq Rəhbərlik tərəfindən təsdiqlənir.

Bir borcalan, o cümlədən banklar və broker şirkətlərinin məruz qaldığı kredit riski əlavə olaraq balans və balansdankənar riskləri əhatə edən ARMB-nin normativ sub-limitləri vasitəsilə, eləcə də gün ərzində forvard valyuta müqavilələri kimi ticarət vasitələri üzrə risk limitlərini ötürməklə məhdudlaşdırılır. Qəbul edilə bilən risk səviyyəsi üzrə limitlərə faktiki olaraq hər gün nəzarət edilir. Cəmiyyət tərəfindən aşağıdakı sub-limitlər tətbiq edilir:

Kreditor və ya əlaqəli borc alanlar üçün maksimum kredit məbləği aşağıdakı kimidir:

(i) Bir borcalan və birgə borcalanlar qrupuna verilən kreditin maksimum məbləği kreditin verilmə tarixinə Cəmiyyətin kapitalının 30 faizindən və

(ii) Bütün aidiyyəti olan şəxslərə verilən kreditlərin cəminin qalıq məbləği Cəmiyyətin kapitalının 30 faizindən çox olmamalıdır.

Cəmiyyətin kredit siyasəti kreditlərin verilməsi prosesinə cəlb olunan Cəmiyyətin hər bir əməkdaşının vəzifə və səlahiyyətlərini tənzimləyir, eləcə də kreditlərin verilməsi limitlərini, kreditlərə nəzarət qaydalarını, Cəmiyyətin tətbiq etdiyi reytinq sisteminin prinsiplərini və kreditlərin verilməsi prosedurlarını müəyyən edir.

### Kreditin təsdiqlənməsi proseduru və səlahiyyətlərin müəyyən edilməsi

Kreditin təsdiqlənməsi prosesi Cəmiyyətin Kredit Siyasətində nəzərdə tutulan prosedurlara uyğun olaraq həyata keçirilir. Kreditin təsdiqlənməsi səlahiyyətləri hər bir biznes vahidi üzrə Cəmiyyətin Rəhbərliyi tərəfindən təsdiqlənmiş limitlər çərçivəsində müəyyən edilir.

## 21. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Kredit riski (davamı)

### Kreditlərin təsdiqlənməsi üzrə səlahiyyətlər

Kreditlərin verilməsindən əvvəl Cəmiyyət, potensial borcalanların ətraflı qiymətləndirilməsini aparır. Bu təhlil potensial borcalanın maliyyə vəziyyətinə, bazardakı mövqeyinə, kreditin təminatı üçün qoyulmuş girovun növünə və dəyərinə, eləcə də kredit tarixçəsinə əsaslanır.

Kreditlər üzrə monitorinq borcalan üzrə Cəmiyyətin daxili risk reytinqini nəzərə alaraq, kreditin ümumi müddəti ərzində müntəzəm şəkildə aparılır. Bir çox hallarda planlaşdırılmış monitorinq hər rüb aparılır. Kreditin vaxtı keçdikdə, borcalana on gün ərzində bildiriş göndərilir. Borcalan krediti ödəyə bilmədikdə 30 gün ərzində ikinci bildiriş göndərilir. Kreditlərin böyük hissəsi üzrə faiz ödənişləri hər ay aparıldığına görə, bu Cəmiyyəta borcalanın maliyyə vəziyyətinə dair əlavə məlumat əldə etmək imkanı verir. Ödənişlərin vaxtı gecikdirildiyi halda, Kredit Komitəsi tərəfindən əlavə monitorinq keçirilir. Həmin Şöbə Cəmiyyətin aktivlərinin təhlükəsizliyi və mümkün kredit riskləri və zərərlərin azaldılmasını təmin etmək məqsədilə, bütün kredit növləri üzrə monitorinq aparır və monitorinqin nəticələrinə dair xüsusi hesabat hazırlayaraq onu Cəmiyyətin Kredit Komitəsinə təqdim edir. Fiziki şəxslərə verilmiş kreditlər istisna olmaqla, Cəmiyyətin bütün kreditlər üçün zəmanətlər və müxtəlif girov növləri (daşınmaz əmlak, əsas vəsaitlər, dövriyyədə olan mallar, qiymətli kağızlar və s.) şəklində təminat alınmasını nəzərdə tutur. Girovun qiymətləndirilməsi müstəqil peşəkar şirkət tərəfindən aparılır.

### Bazar riski

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) valyuta (b) faiz dərəcəsi və (c) pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazar risklərinin idarə edilməsində Cəmiyyətin məqsədi valyuta məzənnələri və faiz dərəcələrindəki mənfi dəyişikliklərə görə Cəmiyyətin məruz qala biləcək açıq bazar mövqeləri üzrə mümkün zərər məbləğlərinin məhdudlaşdırılması və azaldılmasından ibarətdir. İdarəetmə Komitəsi qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir.

Bu limitlər ARMB-nin Açıq Valyuta Mövqeyi Limitlərinin Müəyyən Edilməsi və Tənzimlənməsi Qaydalarına uyğun olaraq müəyyən edilir. Cəmiyyətin hər-hansı bir valyuta üzrə açıq valyuta mövqeyi Cəmiyyətin məcmu kapitalının 10.0 faizindən, bütün xarici valyutalar üzrə isə 20.0 faizindən artıq olmamalıdır. Cəmiyyət, ehtiyac yarandıqda ARMB-nin müəyyən etdiyi limitlərdən daha sərt limitlər müəyyən edə bilər.

### Xarici valyuta riski

Cəmiyyət Azərbaycan manatına qarşı xarici valyuta məzənnələrindəki dəyişikliklərin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar xarici valyuta riskinə məruz qalır. İdarəetmə Komitəsi hər bir valyuta üzrə və ümumilikdə risklərin səviyyəsi ilə əlaqədar günün sonuna, həmçinin bir gün ərzində limitlər müəyyən edir və bu limitlərə gündəlik nəzarət edir.

Cəmiyyət spekulyativ fəaliyyət və ya hecinq məqsədləri üçün hər hansı derivativ alətlərlə əməliyyat aparmır. Bu cür alətlər Azərbaycan Respublikasında geniş yayılmamışdır.

## 21. Maliyyə risklərinin idarə edilməsi (davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixinə maliyyə aktivlərinin və öhdəliklərinin valyuta strukturu təqdim olunur:

| | AZN | Cəmi |
|---|---|---|
| Cəmi maliyyə aktivləri | 13,253,859 | 13,245,684 |
| Cəmi maliyyə öhdəlikləri | (6,866,619) | (6,866,619) |
| **Xalis mövqe** | **6,387,240** | **6,379,065** |

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə maliyyə aktivlərinin və öhdəliklərinin valyuta strukturu təqdim olunur:

| | AZN | Cəmi |
|---|---|---|
| Cəmi maliyyə aktivləri | 10,990,402 | 10,990,402 |
| Cəmi maliyyə öhdəlikləri | (6,418,953) | (6,418,953) |
| **Xalis mövqe** | **4,571,449** | **4,571,449** |

Yuxarıdakı cədvələ yalnız pul aktivləri və öhdəlikləri daxildir. Cəmiyyət hesab edir ki, pay alətləri üzrə investisiyalar və qeyri-pul aktivləri əhəmiyyətli valyuta riskinin yaranmasına gətirib çıxarmır.

Valyuta məzənnələrindəki dəyişikliklər Cəmiyyətin mənfəət və ya zərərindən başqa, digər kapitalına heç bir təsiri yoxdur. Açıqlama Cəmiyyətin funksional valyutasından fərqli valyutalarda ifadə olunan pul qalıqları üçün hesablanmışdır.

### Faiz dərəcəsi riski

Cəmiyyət bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Bu cür dəyişikliklər nəticəsində faiz marjaları arta bilər, lakin faiz dərəcələri üzrə gözlənilməyən dəyişikliklər baş verdiyi təqdirdə faiz marjaları həmçinin azala və ya zərərin yaranmasına səbəb ola bilər. İdarəetmə Komitəsi faiz dərəcələrinin dəyişməsinin qəbul edilə bilən səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir.

Aşağıdakı cədvəl 31 dekabr 2025-ci il tarixinə diskontaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə təhlilini göstərir:

| | Tələb edilən və ya 1 ay ərzində | 1-6 ay ərzində | 6-12 ay ərzində | 12 ay-5 il ərzində | Qeyri-müəyyən | Cəmi |
|---|---|---|---|---|---|---|
| Müddətli borc öhdəlikləri | 97,527 | 487,635 | 507,375 | 874,026 | - | 1,966,563 |
| Buraxılmış borc qiymətli kağızları | 85,740 | 1,233,000 | 3,282,378 | 876,444 | - | 5,477,562 |
| Səhmdara olan borc öhdəliyi | - | - | - | - | 668,000 | 668,000 |
| **Cəmi maliyyə öhdəlikləri** | **183,267** | **1,702,635** | **3,789,753** | **1,750,470** | **668,000** | **8,112,125** |

## 21. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Faiz dərəcəsi riski (davamı)

Aşağıdakı cədvəl 31 dekabr 2024-cü il tarixinə diskontaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə təhlilini göstərir:

| | Tələb edilən və ya 1 ay ərzində | 1-6 ay ərzində | 6-12 ay ərzində | 12 ay-5 il ərzində | Qeyri-müəyyən | Cəmi |
|---|---|---|---|---|---|---|
| Müddətli borc öhdəlikləri | 124,137 | 558,301 | 370,509 | 848,793 | - | 1,901,740 |
| Buraxılmış borc qiymətli kağızları | 51,767 | 258,833 | 882,600 | 4,087,782 | - | 5,280,982 |
| Səhmdara olan borc öhdəliyi | - | - | - | - | 641,962 | 641,962 |
| **Cəmi maliyyə öhdəlikləri** | **175,904** | **817,134** | **1,253,109** | **4,936,575** | **641,962** | **7,824,684** |

Həssaslıq təhlili apararkən Cəmiyyətin aşağıdakı mülahizələri irəli sürür:

- Cəmiyyət bütün mümkün dəyişikliklərin deyil, yalnız müvafiq risk dəyişənində mümkün ola biləcək dəyişikliklərin limitləri çərçivəsində təsirini açıqlayır.
- Cəmiyyət öz maliyyə alətləri üzrə faiz dərəcələrinə nəzarət edir.

### Coğrafi risk

Ölkə riski ölkəyə sərmayə qoymağa və maliyyələşdirməyə xas olan hər hansı riskdir. Xarici ticarətin, transmilli şirkətlərin və hər şeydən əvvəl beynəlxalq bank əməliyyatlarının inkişafı ilə kredit riskində ölkə riskinin nəzərə alınmasının əhəmiyyəti sürətlə artmışdır. Ölkə riski dedikdə, suveren dövlətin hər hansı kredit münasibətindən yaranan adi risklərdən başqa səbəblərə görə hər hansı xarici agent qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi və ya yerinə yetirməməsi ehtimalı ilə əlaqələndirilir.

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin maliyyə aktivlərinin və öhdəliklərinin coğrafi konsentrasiyası bütövlükdə Azərbaycan Respublikası ilə bağlıdır.

### Likvidlik riski

Likvidlik riski Cəmiyyətin maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində Cəmiyyətin çətinliklərlə üzləşəcəyi riskdir. Buraya faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri üzrə digər maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır. Cəmiyyətin rəhbərliyinin fikrincə maliyyə aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və ya nəzarət olunan uyğunsuzluğu maliyyə təşkilatlarının idarə olunması üçün əsas amillərdir.

Likvidlik risklərinin idarə edilməsi məqsədilə Cəmiyyət aktiv və öhdəliklərin idarə edilməsi prosesinin bir hissəsi kimi təşkilatların əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinə hər gün nəzarət edir. Borc alınmış vəsaitlərin geri götürülməsi tələblərinə cavab vermək və həmçinin normal və gərgin vəziyyətdə vəsaitlərin ödənilməsini təmin etmək üçün idarəetmə komitəsi və idarə heyəti banklararası və digər borc vəsaitlərinin minimum səviyyəsi üzrə və ödəmə müddəti başa çatan vəsaitlərin minimum səviyyəsi üzrə limitlər müəyyən edir. Onlar həmçinin öhdəlik bazasının diversifikasiya riski üzrə parametrlər müəyyən edir.

## 21. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Likvidlik riski (davamı)

Cəmiyyətin likvidlik siyasəti aşağıdakılardan ibarətdir:

- Pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və müxtəlif vaxt çərçivələrində likvidliyin təmin edilməsi üçün lazımi likvid aktivlərin səviyyəsinin saxlanması;
- Cəmiyyətin strateji məqsədlərinə uyğun maliyyə planının hazırlanması;
- Müxtəlif maliyyələşdirmə mənbələrinin saxlanması və beləliklə, Cəmiyyətin ölkədaxili və xarici mənbələrdən borc almaq imkanlarının artırılması;
- Yüksək likvidli və yüksək keyfiyyətli aktivlərin saxlanması;
- Məhsul bazasının vaxt çərçivələrində mövcud maliyyələşdirmə mənbələrinə uyğunlaşdırılması;
- Aktiv və öhdəliklər strukturunun vaxt çərçivələrinədək daimi monitorinqi.

Aşağıdakı cədvəl 31 dekabr 2025-ci il tarixinə maliyyə aktivləri və öhdəliklərinin gözlənilən ödəmə müddətləri üzrə təhlilini təqdim edir:

| | Tələb edilən və ya 1 ay ərzində | 1-6 ay ərzində | 6-12 ay ərzində | 1 il-5 il ərzində | Qeyri-müəyyən | Cəmi |
|---|---|---|---|---|---|---|
| Cəmi maliyyə aktivləri | 2,840,879 | 2,539,019 | 2,527,026 | 5,346,935 | - | 13,253,859 |
| Cəmi maliyyə öhdəlikləri | (247,255) | (1,249,184) | (3,413,171) | (1,289,009) | (668,000) | (6,866,619) |
| **Xalis mövqe** | **2,593,624** | **1,289,835** | **(886,145)** | **4,057,926** | **(668,000)** | **6,387,240** |
| **Yığılmış likvidlik aralığı** | **2,593,624** | **3,883,459** | **2,997,314** | **7,055,240** | **6,387,240** | |

Aşağıdakı cədvəl 31 dekabr 2024-cü il tarixinə maliyyə aktivləri və öhdəliklərinin gözlənilən ödəmə müddətləri üzrə təhlilini təqdim edir:

| | Tələb edilən və ya 1 ay ərzində | 1-6 ay ərzində | 6-12 ay ərzində | 1 il-5 il ərzində | Qeyri-müəyyən | Cəmi |
|---|---|---|---|---|---|---|
| Cəmi maliyyə aktivləri | 1,807,922 | 2,520,300 | 2,355,645 | 4,306,535 | - | 10,990,402 |
| Cəmi maliyyə öhdəlikləri | (157,889) | (483,542) | (906,374) | (4,229,186) | (641,962) | (6,418,953) |
| **Xalis mövqe** | **1,650,033** | **2,036,758** | **1,449,271** | **77,349** | **(641,962)** | **4,571,449** |
| **Yığılmış likvidlik aralığı** | **1,650,033** | **3,686,791** | **5,136,062** | **5,213,411** | **4,571,449** | |

## 22. Kapitalın idarəedilməsi

15 noyabr 2024-cü ildə təsdiq olunmuş Bank olmayan kredit təşkilatlarının prudensial tənzimlənməsi Qaydalarının 4-cü maddəsinin tələblərinə əsasən, təşkilati-hüquqi formasına uyğun olaraq Cəmiyyət minimum 1,000,000 (bir milyon) AZN nizamnamə (şərikli) kapitalına (əmlak haqlarına) malik olmalı və fəaliyyəti dövründə müəyyən edilmiş minimum məbləğdən aşağı səviyyədə olmasına yol verməməlidir.

## 23. Şərti öhdəliklər

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Cəmiyyətə qarşı irəli sürülə biləcək iddialarla əlaqədar, Cəmiyyətin Rəhbərliyi öz təxminlərinə, eləcə də daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

### Vergi qanunvericiliyi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq dövlət vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikasında cərəyan edən son hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilər və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilər. Bunun nəticəsində, Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

### Kapital məsrəfləri ilə bağlı öhdəliklər

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə Cəmiyyətin kapital məsrəfləri ilə bağlı öhdəlikləri olmamışdır.

## 24. Maliyyə alətlərinin ədalətli dəyəri

Ədalətli dəyərin hesablamaları maliyyə aləti müstəqil kommersiya əməliyyatında tərəflər qismində çıxış edən məlumatlı şəxslər arasında mübadilə oluna bildiyi məbləğini təxmin etmək məqsədinə xidmət edir. Lakin, qeyri-müəyyənlikləri və subyektiv mülahizəni nəzərə alaraq, ədalətli dəyər aktivlərin satışı və ya öhdəliklər üzrə hesablaşmanın aparılması çərçivəsində reallaşdırıla bilən kimi qəbul edilməməlidir.

Fəal bazarda ticarət olunan maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərləri kotirovka olunan bazar qiymətlərinə və ya diler qiymət təkliflərinə əsaslanır. Bütün digər maliyyə alətləri üçün Cəmiyyət digər qiymətləndirmə üsullarından istifadə etməklə ədalətli dəyərləri müəyyən edir.

Qiymətləndirmə üsullarının məqsədi qiymətləndirmə tarixində bazar iştirakçıları arasında adi əməliyyatda aktivi satmaq üçün əldə olunacaq və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiyməti əks etdirən ədalətli dəyərin müəyyənləşdirilməsidir.

Qiymətləndirmə metodlarına xalis cari dəyər və diskontlaşdırılmış pul vəsaitlərinin hərəkət modelləri, bazarda müşahidə oluna bilən qiymətləri mövcud olan maliyyə alətləri ilə müqayisə daxildir. Qiymətləndirmə metodlarında istifadə edilən ehtimallara və göstəricilərə riskləri olmayan və bençmark faiz dərəcələri, kredit spredi və diskont dərəcələrin qiymətləndirilməsində istifadə edilən sair premyalar, istiqraz və kapital qiymətləri, xarici valyuta məzənnələri, kapital və kapital indeksi qiymətləri, gözlənilən açıq mövqelər vənisbətlər daxildir. Qiymətləndirmə metodlarının məqsədi kommersiyada fəaliyyət göstərən bazar iştirakçıları tərəfindən müəyyən edilən hesabat tarixində maliyyə alətinin dəyərini əks etdirən ədalətli dəyər vəziyyətinə çatmaqdır.

## 24. Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

Qiymətli kağızlar bazarlarında listinqdə olan borc qiymətli kağızları və səhm qiymətli kağızları, birjalarda alınıb-satılan derivativlər və faiz svopları kimi birjadankənar alınıb satılan sadə derivativlər üçün müşahidə olunan qiymətlər və modellər mövcuddur.

Bazarda təklif edilən və ədalətli dəyəri mənfəət və ya zərərlə uçota alınan maliyyə alətlərinin ədalətli dəyəri onların kotirovka olunan qiymətlərinə bərabərdir.

Digər maliyyə alətlərinin ədalətli dəyəri diskontlaşdırılmış pul axını üsulu vasitəsilə hesablanır. Maliyyə alətlərinin ədalətli dəyərinin hesablanmasında rəhbərlik aşağıdakı mülahizələrdən istifadə edir:

Mənfəət və ya zərərdə ədalətli dəyərində satıla bilən maliyyə aktivləri və aktivlərin ədalətli dəyərinin müəyyənləşdirilməsində kotirovka olunmuş bazar qiymətlərindən istifadə olunur. Bu investisiyalar üçün bazar mövcud olmadıqda və cari ədalətli dəyəri sübut edən hər hansı son əməliyyat baş vermədikdə, həmin investisiyalar ilkin dəyərində qeydə alınır, çünki rəhbərliyin fikrincə, ilin sonunda ədalətli dəyərin balans dəyərindən əhəmiyyətli dərəcədə fərqlənəcəyi ehtimal edilmir.

**Ədalətli dəyərin iyerarxiyası**

Cəmiyyət ədalətli dəyərləri ölçərkən ilkin göstəricilərin əhəmiyyətliliyini əks etdirən aşağıdakı ədalətli dəyər iyerarxiyasından istifadə edir:

- 1-ci səviyyə: Fəal bazarda eyni bir alət üçün aktiv bazar qiymətləri (nizamlanmamış)
- 2-ci səviyyə: birbaşa (yəni qiymətlər kimi), ya da bilavasitə (yəni qiymətlərdən törəyən) müşahidə oluna bilən

1-ci səviyyəyə daxil edilmiş kotirovka olunan qiymətdən başqa digər ilkin göstəricilər. Bu kateqoriyaya aşağıdakı amillərdən istifadə etməklə qiymətləndirilən alətlər daxildir: analoji alətlər üçün fəal bazarda tətbiq edilən bazar qiymətləri; analoji alətlər üzrə kifayət qədər fəal hesab olunmayan bazarlarda tətbiq edilən qiymətlər; və ya bütün əhəmiyyətli ilkin göstəricilərin birbaşa, yaxud dolayısı ilə bazar məlumatlarından müşahidə olunabildiyi sair qiymətləndirmə üsulları.

- 3-cü səviyyə: ilkin göstəricilər müşahidə oluna bilmir. Bu kateqoriyaya aid edilən alətlərin qiymətləndirmə metoduna müşahidə edilə bilən məlumata əsaslanmayan ilkin göstəricilər daxildir və müşahidə edilə bilməyən ilkin göstəricilər həmin alətin qiymətləndirilməsində əhəmiyyətli təsirə malikdir. Bu kateqoriyaya oxşar alətlər üçün kotirovka olunan qiymətlər əsasında qiymətləndirilən alətlər daxildir və buzaman alətlər arasında fərqi əks etdirmək üçün mühüm müşahidə olunmayan tənzimləmələr və ya mülahizələr tələb olunur.

## 24. Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

Aşağıdakı cədvəl ədalətli dəyərində ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərinin hərbir ədalətli dəyər ölçülməsinin 31 dekabr 2025-ci il tarixinə təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir. Məbləğlər maliyyə vəziyyəti haqqında hesabatda tanınan dəyərlərə əsaslanır:

| | **1-ci səviyyə** | **3-cü səviyyə** | **Cəmi ədalətli dəyər** | **Cəmi qalıq dəyər** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,015,697 | - | 1,015,697 | 1,015,697 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | - | 12,238,162 | 12,238,162 | 12,238,162 |
| **Cəmi maliyyə aktivləri** | **1,015,697** | **12,238,162** | **13,253,859** | **13,253,859** |
| Müddətli borc öhdəlikləri | | 1,702,479 | 1,702,479 | 1,702,479 |
| Borc qiymətli kağızları | | 4,496,140 | 4,496,140 | 4,496,140 |
| Səhmdara olan borc öhdəliyi | | 668,000 | 668,000 | 668,000 |
| **Cəmi maliyyə öhdəlikləri** | | **6,866,619** | **6,866,619** | **6,866,619** |

Aşağıdakı cədvəl 31 dekabr 2024-cü il tarixinə ədalətli dəyərində ölçülməyən maliyyə alətlərini hər bir ədalətli dəyər ölçülməsinin təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir. Məbləğlər maliyyə vəziyyəti haqqında hesabatda tanınan dəyərlərə əsaslanır:

| | **1-ci səviyyə** | **3-cü səviyyə** | **Cəmi ədalətli dəyər** | **Cəmi qalıq dəyər** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 325,047 | - | 325,047 | 325,047 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | - | 10,665,355 | 10,665,355 | 10,665,355 |
| **Cəmi maliyyə aktivləri** | **325,047** | **10,665,355** | **10,990,402** | **10,990,402** |
| Müddətli borc öhdəlikləri | - | 1,664,240 | 1,664,240 | 1,664,240 |
| Borc qiymətli kağızları | - | 4,112,751 | 4,112,751 | 4,112,751 |
| Səhmdara olan borc öhdəliyi | - | 641,962 | 641,962 | 641,962 |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **6,418,953** | **6,418,953** | **6,418,953** |

## 24. Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

### Uçot təsnifatları və ədalətli dəyərlər

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixinə maliyyə aktivləri və maliyyə öhdəliklərinin qalıq dəyərləri və ədalətli dəyərləri təqdim olunmuşdur:

| | Amortizasiya edilmiş dəyər | Cəmi qalıq dəyəri | Ədalətli dəyər |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,015,697 | 1,015,697 | 1,015,697 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 12,238,162 | 12,238,162 | 12,238,162 |
| **Cəmi maliyyə aktivləri** | **13,253,859** | **13,253,859** | **13,253,859** |
| Müddətli borc öhdəlikləri | 1,702,479 | 1,702,479 | 1,702,479 |
| Borc qiymətli kağızları | 4,496,140 | 4,496,140 | 4,496,140 |
| Səhmdara olan borc öhdəliyi | 668,000 | 668,000 | 668,000 |
| **Cəmi maliyyə öhdəlikləri** | **6,866,619** | **6,866,619** | **6,866,619** |

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixinə maliyyə aktivləri və maliyyə öhdəliklərinin qalıq dəyərləri və ədalətli dəyərləri təqdim olunmuşdur:

| | Amortizasiya edilmiş dəyər | Cəmi qalıq dəyəri | Ədalətli dəyər |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 325,047 | 325,047 | 325,047 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 10,665,355 | 10,665,355 | 10,665,355 |
| **Cəmi maliyyə aktivləri** | **10,990,402** | **10,990,402** | **10,990,402** |
| Müddətli borc öhdəlikləri | 1,664,240 | 1,664,240 | 1,664,240 |
| Borc qiymətli kağızları | 4,112,751 | 4,112,751 | 4,112,751 |
| Səhmdara olan borc öhdəliyi | 641,962 | 641,962 | 641,962 |
| **Cəmi maliyyə öhdəlikləri** | **6,418,953** | **6,418,953** | **6,418,953** |

## 25. Hesabat tarixindən sonrakı hadisələr

12 fevral 2026-cı il tarixində Cəmiyyət tərəfindən 1,000,000 AZN məbləğində, 24 ay müddətli və illik 15% faiz dərəcəli istiqrazların emissiyası və satışı həyata keçirilmişdir.

31 mart 2026-cı il tarixində Cəmiyyət Kapital Bank ASC-dən 500,000 AZN məbləğində, 24 ay müddətli və illik 15.5% faiz dərəcəli kredit cəlb etmişdir.